*Allah İman gətirən və saleh əməl sahiblərinə bağışlanmaq və böyük mükafat vədini vermişdir.*

*"Maidə" surəsi, 9-cu ayə*

# İMAN

*"İman" mədəni, maarif müəssisəsinin nəşri*

**Dekabr 2012 (Səfər) 08 (76)**



# Peyğəmbərimizdən insanlara qızıl tövsiyələr

*Bir gün, bir adam Peyğəmbərimizin (s) yanına gələrək, "Sizə dünya və axirətlə əlaqəli soruşacaq suallarım var." deyər. Peyğəmbərimiz o kimsəyə, "Nə istəyirsənsə soruş." buyurarlar. Sonra o adam ilə Peyğəmbər arasında bizim də bir çox dərslər çıxara biləcəyimiz bu dialoq olur:*

*İnsanların ən zəngini olmaq istəyirəm. Nə etməliyəm?*
*Qənaətkar olsan insanların ən zəngini olarsan.*
*İnsanların ən xeyirlisi olmaq istəyirəm.*
*İnsanların ən xeyirlisi, insanlara faydalı olandır. Sən də insanlara faydalı ol.*
*İnsanların ən ədalətlisi olmaq istəyirəm.*
*Özün üçün istədiyini insanlar üçün də istəsən insanların ən ədalətlisi olarsan.*
*İnsanlar içində Allaha ən yaxın, Onun ən xüsusi qullarından olmaq istəyirəm.*
*Allahı çox zikr edib xatırlasan o zaman Allahın özəl qulu olarsan.*
*Yaxşılıq edənlərdən olmaq istəyirəm.*
*Allaha, Onu görür kimi ibadət et, hər nə qədər sən Onu görməsənsə də O səni görür.*
*İmanımı kamala çatdırmaq istəyirəm.*
*Gözəl əxlaqlı olsan imanın kamala çatar.*
*Qiyamət günü nur içində məhşur olmaq istəyirəm.*
*Heç kimə zülm etmə, qiyamət günü nur içində məhşur olarsan. Əvvəl özünə və insanlara mərhəmət et ki; Allah da sənə mərhəmət etsin.*
*Günahlarımın azalmasını istəyirəm.*
*İstiğfar edərək günahlarının bağışlanması üçün Allaha yalvarsan günahların azalar.*
*İnsanların ən kərimi olmaq istəyirəm.*
*Allaha qullarını şikayət etməzsənsə insanların kərimi olarsan.*
*Ruzimin bol olmasını istəyirəm.*
*Təmizliyə davam etsən ruzin bol olar.*
*Allah və Elçisi tərəfindən sevilmək istəyirəm.*
*O zaman Allah və Rəsulunun sevdiklərini sev, sevmədiklərini də sevmə.*
*Allahın mənə qəzəblənməsindən özümü qorumaq istəyirəm.*
*Kimsəyə qəzəblənməsən Allahın qəzəbindən xilas olarsan.*
*Duamın qəbul edilməsini istəyirəm.*
*Haramlardan çəkinsən duaların qəbul olar.*
*Allahın məni başqalarının yanında alçaq etməməsini istəyirəm.*
*Namusunu qoruyub iffətli ol ki; insanlar yanında alçaq olmayasan.*
*Allahın eyblərimi, qüsurlarımı örtməsini istəyirəm.*
*Qardaşlarının eyblərini örtsən Allah da sənin eyblərini örtər.*
*Allah yanında ən böyük günah hansıdır?*
*Pis əxlaq və Allahın əmrlərinə qarşı göstərilən xəsislik.*
*Rəhman Allahın rəhmətini nə coşdurar?*
*Gizlidən gizliyə sədəqə vermək və sileyi rəhm (qohumları ziyarət etmək).*
*Cəhənnəm atəşini nə söndürər?*
*Oruc.*

***Sual yarana bilər ki, nə üçün ancaq İmam Hüseynin (ə) ərbəini (40 məclisi) qeyd edilir, qalan İmamların (ə) və hətta Peyğəmbərin (s) ərbəini qeyd edilmir?***



# *Niyə ancaq İmam Hüseynin (ə) ərbəini qeyd edilir?*

1. İmam Hüseynin (ə) fədakarlığı ilə İslam dini dirçəldi. İslam dininin dirçəldilməsində onun rolu əvəzsizdir. Ona görə də bu fədakarlıqları canlı saxlamaq lazımdır. Çünki onları canlı saxlamaq İslam dinini canlı saxlamaq deməkdir. Aşura gününü və ərbəini əziz tutmaq İslam dininin düşmənləri ilə mübarizə aparmaq deməkdir. Və ümumilikdə Peyğəmbər (s) və Əhli-beytinin (ə) müsibətini diqqətdə saxlamaq deməkdir.

2. Həzrət İmam Hüseyn (ə) müsibəti heç bir İmamın (ə) və Peyğəmbərin (s) başına gəlməmişdir. Onun müsibəti bütün müsibətlərdən daha böyük və ağrılıdır.

3. 61-ci hicri ilinin Məhərrəm ayında İmam Hüseyni (ə), övladlarını və səhabələrini öldürdülər. Əhli-beytini (ə) əsir götürdülər, Kufəyə və Şama apardılar. Bu dağ görmüş karvan İmamın (ə) ərbəinində Kərbəlaya gəldi və Aşura gününün acısı təzələndi. Həzrət Peyğəmbər (s) ailəsi üçün ağır günlər idi.

4. İslam düşmənləri İmamı (ə) şəhid edərək, bu dini məhv etmək istəyirdilər. Kərbəla qatilləri çalışırdılar ki, bu hadisəni zehinlərdən silsinlər. Hətta İmam Hüseynin (ə) ziyarətinə gələnləri belə işgəncə edir və öldürürdülər. Mütəvəkkil Abbasinin dövründə Kərbəla qəbirlərinin hamısı şumlandı. İnsanlara bu qəbirlərin ziyarətinə gəlməyi qadağan etdilər. Əhli-beyt (ə) davamçıları da bunun üçün hər bir hadisədən istifadə edirdilər. Bu hadisələrdən biri də ərbəin hadisəsi idi.

5. Mömininin nişanələrindən biri ərbəin günü İmam Hüseyni (ə) ziyarət etməsidir. Həzrət İmam Həsən Əsgəri (ə) buyurur: "Mömininin əlaməti beş şeydir: gecə və gündüz 51 vacib və nafilə namazlarını qılmaq, Ərbəin ziyarəti, üzüyü sağ əlinə taxmaq, səcdə zamanı alnı torpağa qoymaq və "Bismillah"ı yüksək səslə demək". Bu hədisdən göründüyü kimi, mömininin vəzifələrindən biri Ərbəin ziyarətidir.

İmam Sadiqdən (ə) belə bir hədis vardır ki, Həzrət buyurur: "O zaman ki, bizim qəbirlərlə sizin aranızdakı yol uzaq olarsa, mənzilinizin ən yuxarı hissəsinə, damınıza çıxın və orada iki rükət namaz qılın, bizim qəbirlərə işarə edəcək salamlar göndərin. Həqiqətən, həmin salam və namaz bizə çatacaqdır".

Ümumilikdə demək olar ki, ərbəini yaşatmaq – İmam Hüseynin (ə), övladlarının, əshabının, əzizlərinin müsibətini yaşatmaqla bərabər, Peyğəmbər (s) dininin ayaqda qalmasına olan səyləri, Peyğəmbər (s) və Əhli-beytinin (ə) müsibətini simvolizə edir.






# İMAM SƏCCAD (Ə) KƏRBƏLA HADİSƏSİNİN BÖYÜK QORUYUCUSU İDİ

*İmam Zeynəlabidinin (ə) dualarında gözə çarpan ilk mövzu - cəmiyyətin rəhbərliyində Əhli-Beytin (ə) İmamət və həqqaniyyətidir.*

**İmam Səccad (ə) atası İmam Hüseynin (ə) şəhadətindən sonra müsəlmanların imamət və vilayətini öhdəsinə götürdü. Hədis yazanlardan Əbu Hazim yazır: "... heç kimi Əli İbni Hüseyndən (ə) daha ağıllı görmədim”. İmam Baqirdən (ə) nəql edilir: "Atam namazda zəif bir kəndir kimi böyük Allah qarşısında dayanardı. Bədən üzvləri Allah qorxusundan titrəyərdi. Sanki axırıncı namazını qılan insan kimi namaz qılardı”. Məsum İmamlar (ə) sözün əsl mənasında bizim üçün Qiyamət gününə qədər nümunə və ülgüdürlər. Biz müsəlmanların üzərindədir ki, onların rəftar və əxlaqına əməl etməklə öz vəzifəmizə riayət edə bilək.**

O zaman Kufə şəhəri Əhli-Beyt (ə) davamçılarının toplaşdıqları şəhər idi, ona görə də onları məhv etmək əsas hədəf idi. İmam Hüseynin (ə) həqiqi tərəfdarları Kərbəlada şəhid oldular. Ancaq o kəslər ki, sağ qalmışdılar, İbni Ziyadın yaratdığı ağır şəraitdə özlərini göstərə bilmirdilər. Onlar Kərbəla hadisəsindən sonra ağır ruhi və fikri bir dönəmdə idilər. Düşmənlər belə xəyal edirdilər ki, Aşura hadisəsindən sonra daha heç bir Əhli-Beyt (ə) davamçısı və onların rəhbərləri qüdrət əldə edə bilməyəcəklər. Ancaq bu, batil bir xəyal idi, İmam Səccad (ə) çoxlu səylər nəticəsində Əhli-Beyt (ə) davamçılarına yeni həyat bəxş etdi. İmam Baqirin (ə) və İmam Sadiqin (ə) zamanında həqiqi həyat üçün zəminə hazırladı.

İmam Səccad (ə) 34 il ərzində müsəlmanlara rəhbərlik etdi və onları ağır şəraitlərdən qurtara bildi. Bu dövrlərdə çox sayda fitnələr, təhriflər, batil qiyamlar baş vermiş və çox sayda Əhli-Beyt (ə) davamçısı qətlə yetirilmişdi.

İmam Səccad (ə) Mədinə şəhərinə daxil olanda gördü ki, Kərbəla hadisəsi insanlara çox pis təsir etmişdir. Belə ki, bəziləri güman edirdilər ki, Əhli-Beyt (ə) davamçıları bir daha elm iddiasında ola bilməyəcəklər və onların işi sona çatmışdır. Ya da ən azı idarə məsələlərində və siyasi aləmdə bir iş görə bilməyəcəklər.







Əlbəttə, bu, düz idi ki, müsəlman cəmiyyətinin Kərbəla hadisəsindən sonra Əməvilər ilə vuruşmağa kifayət qədər gücləri yox idi. Müsəlmanlar başa düşdülər ki, Əməvilər öz dünya istəklərinə çatmaq və rəhbərlik məqamını əldə saxlamaq üçün hər bir cinayəti törətməkdən çəkinmirdilər. Ona görə də dördüncü İmam (ə) müsəlmanların mənəvi və ruhi tərbiyəsi ilə məşğul olmuşdu.

İmam Səccadın (ə) dövründə bir neçə qiyam baş vermişdi. Əhli-Beyt (ə) davamçıları Məsum İmamların (ə) məzlumiyyətini müdafiə etmişdilər. Bu qiyamlardan biri də Təvvabinlərin qiyamıdır. Kufə camaatı Süleyman ibni Xəzayinin rəhbərliyi altında bir neçə min döyüşçü ilə bu qiyamda iştirak etmişdilər. Deyilənə görə onlar Məsum İmamın (ə) vilayətini qəbul edirdilər, ancaq qələbə çalsaydılar, görəsən rəhbərliyi İmam Səccada (ə) verəcəkdilərmi?

Bu qiyama Kərbəla hadisəsindən sonra gizli şəkildə başladılmışdı. Ancaq 64 və 65-ci illərdə öz pik nöqtəsinə çatdı. Bu hərəkat İbn Ziyad üçün çox təhlükəli idi. Onlar deyirdilər ki, biz İmam Hüseyni (ə) öldürməyimizə görə çox peşmanıq. Öz qana batmış ətəklərini paklamaq üçün qılınca əl atırdılar. Onlar vicdan əzabı çəkirdilər. Vicdanlarını sakitləşdirmək üçün vuruşmaq istəyirdilər. Onlar fəryad çəkirdilər ki, biz bu dünyadakı həyatımızdan bezarıq. Onlar əməvilərlə vuruşda məğlub oldular və şəhid edildilər.

Təvvabinlərdən sonra Kufədə Muxtar ibni Səqəfi qiyama başlayır. Hədəf daha çox siyasi olsa da, ancaq Əməvi rejimini məhv etmək üçün mühüm rola malik idi. O, fikirləşirdi ki, əgər qələbə çalarsa, hakimiyyəti Əli ibni Hüseynə (ə) versin. Ona görə də dördüncü İmama (ə) məktub yazaraq, icazə istəyir. Ancaq o Həzrət (ə) imtina edir. İmam Səccad ölkədəki şəraiti buna hazır görmürdü.

Muxtar Muhəmməd ibni Hənəfiyə məktub yazır, ancaq o, mənfi cavab vermir. Muxtar qiyama hazırlaşır. O, əvvəl qoşun toplayır, ilk olaraq, İbni Ziyadın və Ömər Sədin başını kəsir. İmam Səccadın (ə) yanına göndərir və İmam da şükür səcdəsi edərək buyurur: "Allah Muxtara xeyirli əvəz versin”. Ancaq onun qiyamı az bir müddətdə davam gətirə bildi və 67-ci ildə Zübeyrin oğlu tərəfindən həlak edildi.

Abdullah ibni Hənzəlinin başçılığı ilə də kiçik bir qiyam baş vermişdi. Ancaq İmam (ə) bitərəfliyini bildirmiş və Mədinədən xaric olmuşdu. Qan tökülməsin deyə, bir neçəsinə pənah yeri də vermişdi.

İmam (ə) görürdü ki, insanlar qiyama qalxan zaman qətl edilirlər. Bu da dinin əsasının aradan getməsinə gətirib çıxarırdı. Həzrət Peyğəmbər (s) nəslindən tək qalan Məsum (ə) olduğu üçün bu işdən çəkinirdi. Onu İslamın xeyrinə görmürdü. Onun əsas hədəfi fədakar və agah, İslam maarifini və dini əhkamları bilən insanların tərbiyə edilməsi idi. Çünki lazım olanda onlardan dinin yayılmasında və düşmənlərlə mübarizədə istifadə etmək olardı.



# KLASSİK ƏDƏBİYYATIMIZDA KƏRBƏLA HADİSƏSİ

**Kərbəla… Dünyanı hər zaman adı ilə titrədəcək azadlıq meydanı.**

Kərbəla…əbədiyyət və sonsuzluğun dünya hüdudlarından kənar ərşin altında yerləşdiyi məkan. Kərbəla… Qanın qılıncа qələbə çaldığı cənnətin bir guşəsi. Kərbəla… Aşiqin Məşuqa qovuşduğu qanlı məhəbbət ünvanı. Kərbəla… Bəlaların səadətə çevrildiyi və səadətin əbədi-yaşar zirvəsi. Kərbəla… dünya buxovlarının qırıldığı mənəviyyat dünyası. Kərbəla…

Ünvanına deyiləsi kəlmələrin sonsuzluğu müqabilində vəsfinə aciz olduğumuz bəşəriyyətin tək nicat qapısı, Kərbəla. Bəli, həqiqətən də vəsfi ağılların belə almadığı həmişəyaşar Kərbəla. Zaman bu qanlı olayın üzərinə nə kimi pərdələr çəkməyə cəhd edənlərin iç üzünü açmış, nə qədər əks cəbhədə duranları tarixin qara səhifəsində alçaldaraq məhkum etmişdir. Böhtanlar, ittihamlar, yalan və iftiralar bu şanlı səhifənin üzərində həqiqət möhrünü nəinki silməyə qüdrətli olmamış, əksinə Kərbəla dəyərlərini bəşəriyyətə daha çox dərk etmək üçün zəmin olmuşdur. Budur, Kərbəla öz ali siması ilə yenə də dünya insanını düşüncə və kədərə qərq etmiş, möhtəşəm bir olayın zamanlar kəsiyində fırtınasını bir daha təkrar etməkdədir.

Kərbəla Azərbaycanın tarixi keçmişində də öz dəyərli izləri ilə qalmaqdadır. Bu qiymətli məktəb tarixin dahiləri tərəfindən daima anılıb və hər zaman matəminə həqiqət aşiqlərini toplayaraq bəşəriyyəti bundan ilham almağa çağırıb. Elə bir ilham ki, əsarət, zəlillik, xar və qul olmaq həmişə bu məktəbə yad olmaqla azadlığı və ədaləti qanlı bayraq kimi başından uca tutmuşdur. Budur, o hadisələrə tarixin ittiham olunduğumuz kimi 150 illik İranın əzadarlıq dünyası deyil, bir əsrlik tarixi keçmişdən qaynaq tapan Azərbaycanın qeyrətli və azadlıq sevən oğullarının acı və ağrıları.

Məhəmməd Füzuli. (1494-1556) Tarixin Kərbəla hadisəsini qələmi ilə dünyaya tanıdan Azərbaycanın dahi şairi. Kərbəla hadisəsi Füzulinin «Hədiqətüs-süəda» (Xoşbəxtlər bağçası) adlı dəyərli bir əsərində toplanıb. Burada o İmam Hüseynin (ə) şəxsiyyətinə tanıtımdan Kərbəla



hadisəsinə qədər geniş təhlil edərək Hüseynin (ə) matəmini belə vəsfə çəkir:

**Ya şahi-Kərbəla, nə rəva bunca qəm sənə,**
**Dərdü dəmadəmü ələmi-dəmbədəm sənə.**

Və ya əsərin sonunda:

**Yad et, Füzuli, Ali-Əba halın, eylə ah**
**Kim, bərqi-ah ilə yıxılır xərməni-günah.**

Göründüyü kimi Kərbəla hadisəsini qüssəli olay kimi vəsfə çəkən Füzuli bu hadisədə kədərli əzanı günahların yuyulması kimi tərənnüm edir.

Şah İsmayıl Xətai (1448-1524). Əza və kədərin, matəm və iztirabın tərənnümündə Şah İsmayıl Xətainin yeri xüsusidir. Hadisəsi tarix səhifələrində əks olunan «Xətai» təxəllüsü də Şah İsmayılın həyatında Kərbəla olayı ilə bağlı olduğu danılmazdır. Tərəfindən bir çox mərsiyə və rozələr yazılan Şah İsmayıl Xətai bu əqidənin tərənnümündən əlavə matəm və əzasını da ali tutmuşdur:

Bu gün matəm günü gəldi, Hüseynim vay Hüseynim vay.
Sənin dərdin bağrım dərdi, Hüseynim vay, Hüseynim vay.

Azərbaycanda rəsmən Aşuranın əza tutulması da məhz Şah İsmayıl Xətainin dövrünü əhatə edir.

Qasım Bəy Zakir (1784-1857). Onlarca mərsiyə və rozənin müəllifi, Azərbaycan klassik ədəbiyyatında özünəməxsus yer tutan Qasım Bəy Zakirin Kərbəla hadisəsinin tərənnümünə, xüsusən qəm qəhrəmanı Xanım Zeynəbin (s.ə) başına gələnləri vəsfə çəkdiyi ölməz mərsiyələr Azərbaycan tarixinin səlnamələrindəndir.

**Xəbər aldım Əhli-beytin, ədədi-qəmin fələkdən,**
**Dedi ki: Hesabə gəlməz qəmi bihesabi-Zeynəb.**

Və ya:

**Dəxi Zakiri hesab et səgi-kuyi Kərbəladən,**
**Behəqi-fəğani-Zəhra, behəqi-əzabi-Zeynəb.**

Abbasqulu Ağa Bakıxanov (Qüdsi) (1794-1847). Kərbəla faciəsində müxtəlif məqamları vəsfə çəkən, Qüdsi dəsti xətti ilə yazan görkəmli ədib Abbasqulu Ağa Bakıxanovun yazdığı müxtəlif növhə və əfradlar bu gün də əza məclislərində Kərbəla hadisəsini yaşatmaqdadır. Öz mənəvi dünyası ilə Kərbəlanın bəlalı çöllərini dolaşan şair burada baş verənləri qəlb yanğısı və ümumbəşəri mahiyyət baxımından təqdim etməyə çalışmışdır.

**Necə qoyum qala bu yer üstə xar gül bədəni,**
**Olubdu qanına qəltan, tapılmayır kəfəni.**
**Başıma şali-əza matəmündə bağlayaram,**
**Nə qədər vardı canım, sübhü şam ağlıyaram.**

Və ya:

**Tutacaq məhvili-Qüdsidə əza ruhil-əmin,**
**Olacaq həşrə kimi nohəsəra ruyi-əzim,**
**Saldılar ərşi-səfadən yerə çün firqəyi-kin**
**Zülm ilə şəmsi-münirü qəmərü əxtərimi.**

Seyid Əzim Şirvani (1835-1888). Seyid Əzim Şirvaninin ədəbiyyatda Kərbəla hadisəsinə baxışı xüsusi və özünəməxsusdur. Onlarca növhə və əfrad yazan şair hər vəchlə Kərbəla məktəbinin Azərbaycan cəmiyyətinə dərki üçün əlindən gələni əsirgəməmişdir. Onun yaratdığı ölməz növhələr hər bir oxunuşu ilə qəlbi riqqətə gətirir, amansız, zalım Bəni-Üməyyə hakimiyyətinə qarşı barışmaz mövqe aşılayır.

**Seyyida, riştəyə çəkdin yenə yüz dürri-Ədən,**
**Sənə məhşərdə şəfaət eləsin ibni-Həsən.**
**Mərhəbalər sənə, ey şairi-ecazsüxən,**
**Səndə feyzi-nəzəri-həzrəti-mövla görünür.**

Və ya:

**Ağla bu matəmdə, ey Seyyidi-bəxti-qəra,**
**Nəzm ilə bu matəmi, şövq ilə sübhi məsa.**
**Əcrini axır verir padişəhi-Kərbübəla,**
**Həşridə fəryadına şafeyi-üsyan gəlir.**

Mirzə Ələkbər Sabir (1862-1911). Seyid Əzim Şirvani yaradıcılığından qaynaqlanan Sabir yanğısı Kərbəla əzası müqabilində daha yandırıcı daha hüzünlüdür. Xüsusən bu gün də dillər əzbəri olan Əli Əkbərə (ə) həsr olunan nohələri ilə Sabir yaradıcılığından bu əzaya xüsusi bir baxışı seyr etmək olur:

**Baxdı çün Əkbərinin nizədə Leyla üzünə,**
**Gördü zülfi tökülüb, çün şəbi-yelda üzünə.**

Və ya:

**Sabira, hər il əza saxla Əliəkbərə sən,**
**Kərbəlada gedib ağla o şəhi-davərə sən,**
**Gəl qiyamətdə bu qəm ilə səfi-məhşərə sən,**
**Qalma həsrət iki dünyadə bu mövla üzünə.**

Xurşidbanu Natəvan (1832-1897). Klassik ədəbiyyatımızda gözəl qəzəlləri ilə yanaşı özünü Peyğəmbərin (s) qızı Xanım Zəhraya (ə) kəniz bilən Xurşidbanu Natəvan yaradıcılığında da Kərbəla hadisəsi özünəməxsus formada vəsf olunub:

**Söylə Hüseynə, ey səba, Kərbübəlaya gəlməsin,**
**Gəlsə, düşər bu dəştdə dərdü bəlayə, gəlməsin.**



Və ya:

**Fatimənin kənizi, bu qissəni eylə kim, tamam,**
**Bir-birə dəydi mərdü zən, şurə gəlibdü xasü am.**
**Növhə edər bu Natəvan, ruzi şəb ağlayar müdam,**
**Tapmasa bir dəri-nicat, dari-bəqayə gəlməsin.**

Bu Azərbaycan klassik ədəbiyyatında Kərbəla hadisəsində qəlb yandırıcı növhələri ilə dünəndən bu gündə ötürən bir neçə inci idi. Unutmayaq ki, Əhli-beytə (ə) məhəbbəti həyat qayələri bilən mütəfəkkirlərimiz bunu bizə ötürməkdə incə bir məqamı «Haqqa arxalanıb onu uca məqamla tanıma!» prinsipi ilə bizi azadlıq və əbədiyyət yoluna dəvət etmişlər.

Əbülfəz Bünyadov (islamazeri.az)

# QURAN HANSI SAHƏDƏ BİZDƏN GİLEYLƏNİR?



"Biri məni yanlış oxuyur, biri məni ğina kimi nəğmə ilə oxuyur. Biri məni qoluna bağlayır ki, ona xeyir gətirəcəyəm, ancaq dərk etmir və düşünmür. O birisi isə məni boynuna asır, sanki qızıldan bir xaçam". "(Həmin gün) Allahın peyğəmbəri deyəcəkdir: «Ey mənim Rəbbim! Həqiqətən mənim qövmüm (peyğəmbərliyin əvvəlindən dünyanın sonuna kimi) bu Quranı tərk etdi (və onun təlimlərini dərk etməkdən və ona əməl etməkdən üz döndərdi)». ("Furqan" 30).

Bu ayədən görünür ki, Peyğəmbər (s), ümmətinin Quranı tərk etməsindən nə qədər narazıdır.

İmam Rza (ə) buyurur: "Namazda Quran oxumağımızın səbəbi odur ki, Quran öz haqqından məhrum edilməsin".

Hədislərdə oxuyuruq ki, müsəlman hər gün ən azı 50 ayə oxumalıdır. O, bu ayələri tələsik deyil, aram-aram və qəlbini bu tilavətlə ruhlandıraraq oxumalıdır. Molla Sədra "Vaqiə" surəsinin təfsirinin əvvəlində belə yazır: "Çox sayda alimlərin kitablarını mütaliə etmişəm. Fikirləşirdim ki, mən də bir şəxsiyyətəm. Ancaq bəsirətim bir qədər açılan kimi özümü həqiqi elmlərdən uzaqda gördüm. Ömrümün axırında belə fikirləşdim ki, Quran və Muhəmməd (s) hədisinin sorağına gedim. Ömrüm boyu nur əvəzinə onun kölgəsində dayanmışam. Qüssədən məni alov bürüdü. Qəlbim şölələndi, o zamana qədər ki, İlahi rəhmət əlimdən tutdu. Məni Quranın sirləri ilə tanış etdi. Quranı təfsir etməyə başladım. Vəhy qapısını döydüm və qapıları açıldı. Pərdələr kənara çəkildi və gördüm ki, mələklər mənə deyir: "Salamun əleykum".

Feyz Kaşani: "Kitablar və risalələr yazdım. Tədqiqatlar apardım, ancaq heç bir elmdə dərdimə dərman tapmadım. Özözümə qorxdum və üzümü Allaha çevirdim. Allah məni Qurana və hədisə tərəf hidayət etdi".

İnsanla səma kitabı arasında olan rabitə gərək daimi olsun. Bundan başqa Quranda deyilənləri həyatımızın hər bir sahəsində həyata keçirə bilək. Həm Quranı hüququndan məhrum etməyək, həm də Quranı həm elmdə və həm də əməldə həyata keçirə bilək. Bu cür əziz Peyğəmbərin (s) razılığını əldə etmiş olarıq.

Mən o kəslərdən giləylənirəm ki, məni kənara atıblar, mənə heç nəzər də salmırlar. Mən o kəslərdən giləylənirəm ki, məni ancaq hifz edirlər, nə mənasını bilirlər və nə də onu dərk edirlər. Ancaq hacətinə çatmaq və savab qazanmaq üçün onu hifz edirlər. Bu cür insanlar məndə deyilənlərə əməl etmirlər, onlar ancaq mənasını bilmədən bu nurani kəlamları lazım olan hallarda təkrar edirlər. Ya da hansısa hacətinə görə məni vərəqləyir və hacətlərini axtarırlar. Yaxşı nəticə almayanda da məni günahlandırırlar.

Qurana daha çox diqqət edək və ondan Allah istəyən kimi bəhrələnək, inşaallah.



# DUA İLƏ ŞƏFA MÜMKÜNDÜRMÜ?

***Çox çətinliklə də olsa, bu sənədi imzaladı hər ikisi də. Ananın gözünün yaşı imza atdığı vərəqə süzülürdü. Həkimin sözləri təkrar-təkrar qulağında səslənirdi: "Artıq çox gecdir. Metastaz bütün ağ ciyərinə yayılıb. Ancaq Allaha təvəkkül edib son şansını sınayacağıq. Bu əməliyyatdan sağ çıxmaya bilər. Bunu bilməniz lazımdır. Özünüzü hər vəziyyətə hazır edin. Və dilinizdən bu əməliyyatı keçirtmək üçün razılıq ərizəsini imzalamağınız labüddür. Biz həkimlər bacardığımızı edirik, gerisi qalır O böyük olan Allahın ümidinə. Allahdan ümid kəsilməz. Biz əməliyyat edəcəyik, siz də öz növbənizdə dua edin!”.***

Artıq uşaq əməliyyat otağına aparıldı. Tibb işçiləri əməliyyatın uzun keçəcəyini söylədilər. Xəstəxanada dua etmək üçün bir otaq ayrıldığını bildirib, əməliyyat müddəti ərzində orada olub, dua etməyi məsləhət gördülər.

Onlar belə də etdilər. Aşağı mərtəbədə dua və ibadət üçün ayrılan otağa endilər. Otağın qapısının girəcəyində qutunun içində yaylıqlar var idi. Nəzarətçi qadınlara bu yaylıqlarla başlarını örtüb içəri girmələrini rica edirdi. Xristian dini ayinlərinə müvafiq qurulmuş bu otaq kiçik bir kilsəyə bənzəyirdi. İçəridə bir neçə nəfər oturub dua edirdilər.

Ana ilə ata çaşqın halda ətrafa boylanırdılar. İlk dəfə idi belə bir mühitdə idilər. Onlar müsəlman idi. Burada nə edəcəklərini, necə edəcəklərini, üstəlik bir müsəlman olaraq da necə dua edəcəklərini bilmirdilər. Buz heykəl kimi donub durmuşdular. Birdən qəfil səslənən "Salam” onların sanki donlarını əritdi. Doğma dildə səslənən bu salam onlara bir məlhəm oldu o an.

Onlarla salamlaşan əməliyyatda olan uşağın əmisi idi. Qardaşına və gəlinlərinə mənəvi dəstək olmaq üçün ilk reyslə Bakıdan gəlmişdi.

Bir müddət salam-kəlamdan və vəziyyətdən danışdıqdan sonra əmidən necə dua edəcəklərini soruşdular. O, bir neçə müddət idi ki, ibadətə başlamışdı. Və duanı necə etməyi də bilməli idi.

Əmi: "Elə mən özüm də sizlə bu haqda danışacaqdım. Dərd varsa, dərmanı da var. Bütün dərdlərin dərmanı Allahdadır. Hər müşkülün açarı Onun əlindədir. Nə olsun ki, bura kilsə kimidir. Hər yer Allahındır. Allah ona uzadılan əli harada olmasından asılı olmayaraq, geri qaytarmaz”.

Cibindən kiçik kompası çıxarıb, qibləni müəyyən etdi. Çantasından namaz dəstini çıxardıb, qiblə istiqamətində yerə sərdi.

"Mən namaz qılıb, dua edəcəyəm. Siz də üzü qibləyə oturub əllərinizi açıb dua edin. Baxın, qarşıdan Məhərrəm ayı gəlir. İstəyin Allahdan İmam Hüseynə (ə) və yetmiş iki şühədaya xatir balamızın şəfasını versin. And verin Allaha nə olacağından asılı olmayaraq Onun yolunu tutacağınıza. And verin Allahı İmam Hüseynin (ə) balalarının axıdılan nahaq qanına ki, bizim 13 yaşlı balamızın şəfasını versin. Gəlin bacı, sən anasan, and ver Rəbbimizi analar anası olan Xanım Zəhranın (s.ə) şəfa əlini balanın üzərinə çəkməsinə. Nəzir et, sağalsın, evində İmam Hüseyn (ə) məclisi quracağına. 40 gün əyninə qara köynək geyindirəcəyinə”.

Onlar belə də etdilər. Üçü birlikdə sidq ürəklə əllərini açıb dua etdilər.

Ana həyatında ilk dəfə dua edirdi. O, kifayət qədər təhsilli idi. Amma universitetdə oxuduğu zaman daim Allahı inkar etməyi və ona inanmamağı təbliğ edirdilər. Düzdür, Sovet rejimi artıq bir neçə il idi ki, süqut etmişdi. Amma insanların, həmçinin onun özünün də zehnində inamsızlıq dumanı fikirlərini bulandırırdı. Amma o, dua etdikcə bu duman get-gedə çəkilməyə başladı. Tam şəkildə varlıqlarının Onun əlində olduğunu hiss etdi.

Tam səmimi halda Allahına pənah apardı. İnandı... İnandı onun dualarının eşidildiyinə. Və mütləq cavabsız qalmayacağına.

Onlar o qədər duaya dalmışdılar ki, zamanın necə keçdiyini hiss etmədilər. Tibb bacısı yaxınlaşaraq əməliyyatın bitdiyini və həkimin onları gözlədiyini söylədi. Beş saatı arxada qoymuşdular. İti addımlarla həkimin otağına tərəf getdilər.

Həkim: "Əməliyyat çox uğurlu keçdi. Xəstəliyin bu qədər irəliləməyinə baxmayaraq, bütün metastazları və əsas şişi götürdük. Üzərində aparılan əməliyyata rəğmən, durumu pis deyil. Bundan sonra özünə gəlsin, bir neçə kurs kimya və şüa terapiyası almalı olacaq. Hər zaman dediyim kimi, Allahdan ümid kəsilməz”.

Müəyyən müddət müalicələrdən sonra uşaq tam şəfasına qovuşdu. Ana-atası da verdikləri vədi tutaraq, hər Məhərrəm ayı əza məclisi qurur, 40 gün əyninə qara köynək geyinirdilər.

Vətənə qayıdan kimi ata da, ana da ibadətə başladılar. Nəinki onlar, əksər yaxın qohumlar Allahın bu açıq möcüzəsinə şükür etmək üçün dərgahına üz tutdular.

Bu hadisədən 18 il ötür. O uşaq artıq özü ailə sahibidir. Vaxtilə valideynlərinin verdiyi vədi o, öz ailəsində ənənəyə çevirib. Hər il evində heç olmasa bir gün İmam (ə) məclisi qurur, 40 gün ardıcıl geydiyi qara köynəyini İmamın (ə) ərbəinindən sonra Bibi-Heybət pirinə qoyur. Baş verən çətinliklərinin nəticəsində Allahı tanıdıqlarına görə yorulmadan şükürlər edir.

"Və sizin Rəbbiniz dedi: "Məni çağırın, sizə cavab verim...” ("Ğafir” surəsi, ayə 60 )

İmam Sadiq (ə) buyurub: "Dua et və demə ki, iş işdən keçibdir (yəni, nə yazılıbsa o da olacaqdır). Həqiqətən, Allah dərgahında elə bir məqam və dərəcə var ki, ona duadan başqa heç bir vasitə ilə çatmaq olmaz”.

# HZ.MUSA VƏ HZ.İSANIN ŞƏRİƏTİ

***Şəriət insanların əməllərinin və cəmiyyətin tənzimi üçün nəzərdə tutulmuş qanunlar və hökmlər məcmusudur. Nuh, İbrahim, Musa, İsa və İslam peyğəmbəri (s) kimi böyük peyğəmbərlər şəriət sahibi olmuşlar. Allah qarşısında təslimçilik, Allaha itaət, qeyb və məada iman bütün İlahi dinlərin müştərək prinsipləridir. Bu prinsiplər İslam və din adı ilə tanınır. Amma ümmətlər istedadca fərqləndiyindən onların şəriətinə uyğun qanunlar tənzimlənmişdir.***

Həzrət İsanın şəriəti elə Musanın şəriətidir. Tənbeh məqsədi ilə həzrət Musanın şəriətində müəyyən istisnalar mövcud olmuşdur. Amma İsa şəriətində uyğun qadağalar aradan qaldırılmışdır. Bu səbəbdən də bəziləri düşünürlər ki, həzrət İsanın şəriəti Musa şəriətindən fərqlidir.

Müqəddəs kitabın müəyyən məqamlarında Musa şəriətinin və Tövrat hökmlərinin hifzi tapşırılır. Məsələn, Matta İncilində deyilir: "Göy və yer durduqca Tövratdan bir nöqtəni dəyişmək sizə ünvanlanmış daimi bir tapşırıqdır. Ən kiçik hökmü pozan kəs göy aləmində ən kiçik sayılar. Amma əməl edib öyrədən ərş aləmində böyük olacaq."[1]

Həzrət İsa və onun həvariləri Musa şəriətini qoruyurdular. Hər gün məbədə gedir, digər yəhudilər kimi Musa ayinlərini yerinə yetirirdilər. Onların dinini qəbul edənlərə uyğun göstərişləri yerinə yetirməyi tapşırırdılar. Onları yəhudilərdən fərqləndirən yalnız bir cəhət vardı. Məsihilər inanırdılar ki, həzrət İsa zühuru Bəni-İsrail peyğəmbərlərinin kitabında vəd olunmuş şəxsdir."[2]

Matta İncilində deyilir: "Bir şəxs gəlib dedi: "Ey yaxşı ustad! Əbədilik tapmaq üçün nə iş görüm?" O dedi: "Nə üçün məni yaxşı çağırırsan? Hansı ki, Allahdan savayı yaxşı yoxdur. Yox əgər əbədiyyət istəyirsənsə, hökmlərə əməl et."[3]

Eyni İncildə həzrət İsadan belə nəql olunur: "Güman etməyin ki, Tövrat və ya müqəddəs səhifələri aradan götürməyə gəlmişəm. Gəlişim batil etmək yox, tamamlamaq üçündür."[4] Miladın əvvəllərində də bir qrup məsihi mühafizəkar ("əbiyyun" adlanırdılar) Musa şəriətini qorumaq əzmində idi. Onlar müqəddəs yazıları qoruyur, həftənin 7-ci gününü şənbə sayırdılar. Onların nəzərincə, Məsih imanı Musa şəriəti ilə birləşməli idi.[5]

## ŞƏRİƏTDƏN UZAQLIQ

Məsihilik fəlsəfəsində gündəmə gəlmiş şəriətdən uzaqlıq məsələsi heç vəchlə qəbul olunası deyil. Əgər güman etsək ki, Allah-taala insanların imkansızlığını görüb şəriəti pərəstişlə əvəz etmişdir, şübhəsiz, yanılmış olarıq. Çünki Məsih özü şəriətin aradan qaldırılmasını batil saymışdır. Bu barədə Matta İncilində deyilir: "Bəli, məsihiyyətdə şəriəti aradan qaldıran Pavlos oldu. O aşkar dedi: "Artıq şəriət zərurətindən azad olmuşuq."[6]

Pavlos deyir: "Şəriətə əməl etməklə kimsə Allah qarşısında kamil sayılmaz. Yalnız İsa Məsihə imanla ucalmaq olar. Biz özümüz də İsa Məsihə iman gətirmişik. Şəriət yox, İsaya inam yolu ilə yaxşı sayılmışıq. Təkcə biz yox, heç bir insanı şəriətə itaət ucaltmaz."[7]

Hansı ki, Məsihin qardaşı Yaqub deyir: "İnsan təkcə imanla yox, əməllə adil olur."[8]

Bəli, şəriət Pavlos və onun tərəfdarları vasitəsi ilə ortadan götürülmüşdür. Pavlosun risalələri şəriətə qarşı çıxışlarla doludur. O bu yolda çox cihad etmiş, üsul və şəriət tərəfdarlarını məğlub etmişdir.[9] Pavlos inanırdı ki, uşaq xətnə (sünnət) olunmamalı, ayinlər yerinə yetirilməməlidir.[10]

Pavlos həvariləri inandıra bildi ki, şəriəti qorumaq şüarlarından əl çəkmək lazımdır. Amma şəriət tərəfdarları da yerində oturmamışdı. Miladi 140-cı ildə Markiyun Pavlosun işini başa çatdırmaq üçün məsihiliyi yəhudilikdən ayırmaq məqsədi ilə Ruma gəldi. O dedi: "Pavlosa tabe olub yəhudi şəriətindən çıxanlar doğru yoldadır."[11]

Miladi 5-ci əsrdə şəriəti dəstəkləyən və məsihilikdə şəriətin qorunması tərəfdarı olan Plaqiyus müxalif mövqedə dayanmış Aqustinlə üzbəüz gəlməli oldu. Nəhayət, miladi 231-ci ildə əfsəs şurasında Plaqiyus məhkum edildi.[12]

## MUSA ŞƏRİƏTİNİN ARADAN GÖTÜRÜLMƏSİ

"Sifri əmali-rusul" kitabında deyilir: "Elçilərin müjdələri nəticəsində bir çox bütpərəstlər və Barnaba həzrət Məsihə iman gətirdi. Belə ki, yəhudilik ayinləri aradan qaldırıldı. Çünki Məsihə sonda qoşulanlar arasında da xətnə (övladın sünnəti) məsələsi yox idi."[13]

Antakiyada Pavlos və Barnaba arasında bir tərəfdən, Məsihə iman gətirmiş yəhudilər digər tərəfdən çaxnaşma yarandı. Tərəflərdən biri Musa şəriətindəki xətnə məsələsi üzərində dayanırdı. Bildirilirdi ki, bu ayini icra etmədən nicat tapmaq mümkünsüzdür.[14] Amma Pavlos onlara qarşı çıxdı və məsihiliyə yenicə qoşulmuş bütpərəstlərin müdafiəsinə qalxdı.[15]



Onlar qərara gəldilər ki, Yerusəlimdəki elçi və şeyxlərin yanına gedib onların fikrini öyrənsinlər. Yerusəlimdə onlara bildirildi ki, qeyri-yəhudilər də Musa şəriətinə əməl edib xətnə (sünnət) ayinini yerinə yetirməlidir."[16]

Pavlos təkid edirdi ki, şəriət hökmlərinə əməl etməkdən danışan bütün insanlar məlundur.[17] Pavlos düşünürdü ki, şəriət Allah tərəfindən olsa da, mələklər vasitəsilə göndərilmişdir və bu onun zəifliyini göstərir.[18] Başqa bir məqamda deyir: "Ey mənim qardaşlarım! Əməli olmayanın imanlıyam deməsinin nə faydası?!"[19] Doğrusu, əgər insan şəriətə əməl etməklə nicat tapmırsa, bəs Məsihdən öncəki peyğəmbərlərin və onların ardıcıllarının işi nədir? Məgər onlar Allaha imandən əlavə göstərişlərə əməl etməklə, iman və saleh əməl yolu ilə nicat tapmadılarmı?

Pavlosun təlimi məsihiləri əməldən çəkindirdi, əmələ münasibət zəiflədi. Əlbəttə ki, əməl olmayan yerdə avaralıq səhnəyə gəlir. Buna görə də məsihilik dünyasında yaranmış fəsada görə Pavlos ittiham edilməlidir. Belə bir məsuliyyət xüsusi ilə məzhəb başçısı üçün yetərincə ağırdır.

Bu gün də məsihi dünyasını ağuşuna almış fitnə-fəsad, əxlaqsızlıq Pavlosun fəlsəfəsindən qaynaqlanır. Çünki əksər günahkarlar İsa Məsihi Allahın oğlu olduğuna inanır, ona məhəbbətini bildirir, əməldə isə Məsihin göstərişlərindən boyun qaçırırlar. Onlar ümid edirlər ki, keşiş qarşısında günahları etiraf etməklə bağışlanacaqlar. Guya keşiş qarşısında etiraf insanın vicdanını rahatlaşdırır və yeni günahlar üçün yol açır.

Əliəsğər Rizvani


[1] Matta, 5-18.
[2] "Tarixi ədyan", Can Binas, səh.611.
[3] Matta, 19-16.
[4] Matta, 5-17.
[5] Matta, 5-17.
[6] Nameyi Pavlos be rumiyan, bab 7, say 6.
[7] Nameyi Pavlos be Ğəllatiyan, bab 2, say 16.
[8] Nameyi Yaqub, bab 2, say 24.
[9] Tarixi ədyan, səh.614.
[10] Tarixi təməddun, 3-cü cild, səh.686.
[11] Tarixi təməddun, 3-cü cild, səh.708.
[12] Cəhani məzhəbi, səh.744.
[13] Əmali-ğəsl, 11-2.
[14] Həmin mənbə, 15-1.
[15] Məcməul-lahutil-kitabi, səh.446.
[16] Əmali rəsulan, 15-5.
[17] Ğəlatiyan, 3-10.
[18] Məcməul-lahutil-kitabi, səh.446.
[19] Nameyi-Yaqub, bab 2, say 14.


# İtdə olan 10 xislət

***İmam Əli (ə) buyurub:***
***Xoş o kəsin halına ki, yaşayışı itin yaşayışı kimi olsun. Çünki itdə 10 xislət vardır ki, o hər kimdə olsa xoşbəxt olar.***

***1.İtin məxluqat arasında layiqincə qədir-qiyməti olmaz və bu sifət miskinlərə məxsusdur.***

***2.İtin malı və dövləti olmaz və bu sifət dünya məhəbbətindən qırılana məxsusdur.***

***3.Yer kürəsi geniş olduğuna görə itin müəyyən yeri olmaz və bu sifət Allaha təvəkkül edənlərə məxsusdur.***

***4.İt çox zaman ac qalar və bu sifət saleh bəndələrə məxsusdur.***

***5.İtin sahibi onu yüz dəfə vursa belə onun qapısını tərk etməz və bu sifət müridlərə məxsusdur.***

***6.İt gecələr çox az yatar və bu sifət aşiqlərə məxsusdur.***

***7.İti qovsalar və ona zülm etsələr belə onun qəlbində sahiblərinə qarşı kin qalmaz. Sahibləri onu çağıran zaman kin və küdurətsiz olaraq hərəkət edər və bu sifət ruhunda icad olan İlahi mənəviyyatın aradan getməsinə qorxu içində qalan bəndələrə məxsusdur.***

***8.İtə nə yemək versələr razı olar və bu sifət qane olan bəndələrə məxsusdur.***

***9.İt çox zaman sakit qalar və bu sifət Haqq-hesab günündən qorxanlara məxsusdur.***

***10.İt öləndən sonra ondan bir irs qalmaz və bu sifət zahidlərə məxsusdur.***

# KƏRBƏLA ŞƏFALI TORPAQDIR





***Kərbəla torpağının şəfaverici xüsusiyyətləri isə hər dövrdə müşahidə olunmuş və günümüzdə də görünməkdədir. Hər cür xəstəliyi və çətinliyi olanlar, qorxu və dəhşət içində qalanlar bu türbətin möcüzələrini hiss etmişlər. Hüseyn (ə) türbətinin şəfa bəxş etməsi barəsində məsumlarımızdan nəql edilən bəzi hədislər.***

***İmam Rza (ə) buyurmuşdur: Hər növ torpağı yemək haramdır; meyyit (ölmüş heyvan leşi), qan və Allahdan başqasının adı ilə kəsilmiş heyvan əti kimi. Yalnız Hüseyn (ə) qəbrinin torpağı istisnadır. O, bütün dərdlərin şəfasıdır (Şeyx Abbas Qummi Səfinətu'l-bihar, cild 2, səh. 103).***

***İmam Cəfər Sadiq (ə) buyurmuşdur: Hüseyn (ə) qəbrinin torpağında bütün dərdlərin şəfası var və o, ən böyük dərmandır (Mən la yəhzuruhu'l-fəqih, cild. 2, səh. 599-600, hədis 3204; Reyşəhri Mizanu'l-hikmə, cild 2, səh. 941, hədis 6169).***

Bir nəfər İmam Sadiqdən (ə) soruşdu ki, niyə İmam Hüseyn (ə) türbətindən istifadə edənlərin bir hissəsi şəfa tapır, bir hissəsi isə yox? İmam cavab verdi: Tək və şəriksiz Allaha and olsun ki, hər kim Allahın izni ilə türbətin ona fayda verəcəyinə inanıb istifadə edirsə, mütləq şəfa tapır (Təbrisi Məkarimu'l-əxlaq, səh. 317).

Tarixdə bəzi şəxslərin İmam Hüseyn (ə) türbətinə təvəssül etməklə şəfa tapması barədə nümunələr vardır. Miladi XVIII əsrin məşhur ruhani alimi Seyyid Nemətullah Cəzairi təhsilinin ilkin dövrlərində maddi çətinlik içində yaşadığından şam tapa bilmir və dərslərini ay işığında oxuyurdu. Bu səbəbdən, həmçinin, çox oxuyub-yazdığından, getdikcə gözləri zəifləmişdi. Bu böyük alim şəfa niyyətilə Kərbəla türbətindən azacıq gözlərinə sürtdü və gözləri tamam sağaldı (Şeyx Abbas Qumminin Əl-Fəvaidu'r-Rezəviyyə kitabından).

Nəinki İmam Hüseyn (ə) torpağı, hətta Hüseynin (ə) adı ilə bağlı başqa torpaqlar da möcüzəvi xüsusiyyətlərə malikdir. Bir neçə onillik bundan əvvəl yaşamış və islam aləminin ən məşhur və nüfuzlu mərceyi-təqlidi kimi tanınmış mərhum Ayətullahul-uzma Seyyid Hüseyn Birucerdinin başına gəlmiş bir hadisə buna misaldır. Ayətullah Birucerdi bir müddət Nəcəf şəhərində təhsil aldıqdan sonra doğulduğu şəhərə Birucerdə qayıtmışdı (onun Qum şəhərinə dəvət olunması və Qum dini elmlər mərkəzinə rəhbərliyi öz öhdəsinə alması bundan sonra baş vermişdir). O zamanlar Birucerd şəhərində belə bir dini adət vardı: Aşura günündə bütün şəhər camaatı (başda ruhanilər olmaqla) bədənlərinə gil sürtərək, kütlə halında toplaşır və böyük küçə nümayişi təşkil edirdilər, İmam Hüseynin (ə) müsibətlərini xatırlayıb, əzadarlıq keçirirdilər. Ayətullah Birucerdi özü xatirələrində qeyd edirdi ki, çox yazıb-oxuduğundan, tədricən gözləri zəifləmişdi. Aşura günündə onun gözlərinin ağrısı daha da artır və heç əza məclislərində də iştirak edə bilmir. Bu zaman ürəyində Allahla dərdləşir ki, belə əziz günün savabından məhrum olub; qoy Allah onun dərdinə çarə etsin. Birdən sanki qeyb aləmindən alimə ilham olunur ki, əza dəstəsindəki adamların öz bədənlərinə sürtdükləri gildən təbərrük kimi istifadə etsin. Ayətullah əzadarların birinin (deyilənlərə görə, bu, azyaşlı uşaq imiş) ayağından sıçrayan gildən bir az götürüb gözünə çəkir. O gündən bəri Ayətullah Birucerdinin gözləri ağrı və zəiflik bilməyib. Ömrünün sonuna qədər (o, təqribən 90 yaşında vəfat edib) gözünə eynək salmadan yazıb-oxuyurmuş.

Məşhur cəfəri alimi Müqəddəs Ərdəbiliyə aid edilən Hədiqətu'ş-şiə kitabında aşağıdakı məzmunlu maraqlı bir hadisə təsvir olunub:

Hüseyn ibn Məhəmməd ibn Abdullah adlı şəxs öz atasından rəvayət edir ki, bir gün Mədinə məscidində namaz qılmağa hazırlaşarkən, yanında oturmuş iki nəfərin söhbətini eşidir. Adamlardan biri o biri üçün belə bir əhvalat danışır: Bir neçə ay bundan əvvəl ağır xəstəliyə düçar olmuşdum. Həkimlər nəinki məni sağalda bilmirdilər, hətta xəstəliyimin nə olduğundan da baş açmırdılar. Əlacım hər yerdən üzülmüşdü. Qonşuluğumuzda yaşayan Sələmə adlı qarı xəstəliyimdən xəbər tutanda söz verdi ki, məni sağaldacaq. Qarı evinə gedib, azacıq sonra qayıtdı. Özü ilə gətirdiyi bir qab suyu mənə verib dedi ki, içim. Suyu içən kimi dərhal xəstəliyim keçdi. Bir neçə ay sağlam halda yaşadım. Bir gün yenə qarını görəndə soruşdum ki, vaxtilə mənə verdiyin dərman nə idi? Qarı əlində tutduğu təsbehi göstərib dedi ki, bu təsbehin bir dənəsini suda həll edib sənə içirmişdim, onun sayəsində şəfa tapmışdın. Soruşdum: Axı sənin təsbehin nədən düzəldilib? Qarı cavab verdi: Hüseyn ibn Əlinin (ə) türbətindən. Bunu eşidəndə hirslənib qışqırdım ki, ey rafizi məzhəb qadın, sən məni Hüseynin (ə) qəbrinin torpağı ilə sağaltmısan?! (rafizi keçmişdə Əhli-beyt düşmənlərinin şiələrə verdikləri təhqiramiz ləqəbdir; mənası dindən çıxmış deməkdir). Qarı əsəbləşib bizdən getdi. O hələ evinə çatmamışdı ki, xəstəliyim yenidən qayıtdı. İndiyə kimi xəstəlik davam edir və heç bir həkim məni sağalda bilmir (Müqəddəs Ərdəbili Hədiqətu'ş-şiə, səh. 512).

Yenə həmin kitabda Musa ibn Əbdüləziz adlı bir nəfərin danışdığı əhvalat təsvir edilir:

Bir gün Bağdadda məşhur həkim kimi tanınan xristian təbib Yuhanna Nəsrani ilə rastlaşdım. Yuhanna məndən soruşdu: Səni and verirəm öz dininə və peyğəmbərinə, mənə de görüm, Kərbəlada qəbri ziyarət olunan şəxs kimdir? Cavab verdim: Peyğəmbərin nəvəsi Hüseyn ibn Əli (ə). Sualının səbəbini soruşanda Yuhanna mənə bu əhvalatı danışdı:

Bir gecə Harun ər-Rəşidin xidmətçisi evimə gəlib dedi ki, xəlifənin qohumu Musa ibn İsa Haşimi ağır xəstədir. Xəlifə əmr edir ki, gedib onu sağaldım. Mən təcili Musa ibn İsagilə gedəndə gördüm ki, huşsuz vəziyyətdə uzanıb. Yanındakılardan soruşdum ki, xəstə nədən şikayət edirdi? Bir teşt gətirdilər, içərisi insan ciyəri və qanla dolu idi. Dedilər ki, bayaqdan bunları qusub. Bundan əvvəl nə hadisə baş verdiyini soruşdum. Dedilər ki, bir az bundan qabaq məclis qurulmuşdu. Musanın qohumu, Bəni-Haşimdən olan bir nəfər Kərbəla faciəsindən və Kərbəla torpağının şəfaverici xüsusiyyətindən söz açdı. Musa istehza ilə dedi ki, rafizilər Hüseynin (ə) haqqında çox ifrata varırlar, hətta onun qəbrinin torpağından şəfa istəyirlər. Həmin kişi dedi ki, mən özüm bu torpağın təsirini hiss etmişəm, filan xəstəliyim onun vasitəsilə sağalıb.

Musa ibn İsa kişiyə tapşırdı ki, o torpaqdan bir az gətirsin. Kişi tez evdən azacıq türbət gətirib Musaya verdi. Musa türbəti istehza ilə alıb dedi ki, indi yoxlayaram görüm, bunun nə təsiri var? Torpağı götürüb təhqir niyyətilə altına qoydu. Elə o dəqiqə də halı dəyişib ah-nalə etməyə başladı: Yandım, yandım! Teşt gətirin! Teşt gətirdik, gördüyün kimi, bütün içalatını qusdu.

Yuhanna danışır ki, xəstənin vəziyyətinin ümidsiz olduğunu görüb evimə qayıtdım. Səhər xəbər yayıldı ki, Musa ibn İsa ölüb.

Bu hadisədən sonra Yuhanna İslamı qəbul edib müsəlman olur, dəfələrlə İmam Hüseynin (ə) ziyarətinə gedir (Müqəddəs Ərdəbili Hədiqətu'ş-şiə, səh. 512-513).

Şeyx Abbas Qummi Məfatihu'l-cinan kitabında öz müəllimi, məşhur hədis alimi Şeyx Hüseyn Nurinin ailəsinin başına gələn bir hadisəni nəql etmişdir. Bu hadisəni Şeyx Nuri Daru's-səlam əsərində də qələmə almışdır. O yazır ki, uşaq vaxtımda bir gün qardaşlarımla birlikdə anamın yanında idim. Anam gördü ki, qardaşlarımdan biri namaz qılarkən istifadə etdiyi Kərbəla möhürünü əbasının aşağı cibinə (dizdən aşağı) qoyur. Anam qardaşımı tənbeh edib dedi ki, bir də belə etməsin. Çünki oturanda möhür altında qala bilər. Bu isə həm möhürə qarşı hörmətsizlikdir, həm də bu halda möhür sına bilər. Qardaşım da etiraf edib dedi ki, artıq indiyə kimi iki Kərbəla möhürü bu qayda ilə sınıb. Həmin gün qardaşım qərara aldı ki, bir də belə iş tutmasın.

Bu əhvalatdan bir neçə gün keçdi. Bir səhər atamız bizim üçün gecə gördüyü yuxunu danışdı. Atamız yuxuda görür ki, İmam Hüseyn (ə) evimizə qonaq gəlib. Atam onu kitabxanaya aparıb, orada söhbət ediblər. İmam Hüseyn (ə) atama təklif edib ki, oğullarını çağırsın, onlara hədiyyə vermək istəyir. Atam danışırdı ki, bizim (cəmi 5 qardaş) hamımızın otağa gəldiyini görüb. İmam Hüseyn (ə) hər birimizə müəyyən hədiyyələr bağışlayıb. Növbə həmin qardaşıma çatanda, atam hiss edib ki, İmamın üzündə qəzəb əlaməti vardır. Səbəbini soruşanda İmam buyurub ki, sənin bu oğlun mənim türbətimdən hazırlanmış iki möhürü sındırıb, buna görə ona qardaşları kimi münasibət bəsləyə bilmərəm. İmam bunu deyib, bir qədər etinasız halda qardaşıma nəsə xırda bir hədiyyə verib.

Atam bu yuxunu danışandan sonra anamız bir neçə gün əvvəl baş vermiş hadisədən onu xəbərdar etdi. Hamımız bu işə təəccüb etdik.

Bu hadisələr İmam Hüseyn (ə) türbətinin nə qədər möcüzəvi xüsusiyyətlərə malik olduğunu, ona ehtiram bəsləyən şəxsin nə qədər mənfəətlər əldə etdiyini, onu təhqir edən, hörmətsizlik göstərən adamın isə Allahın və din böyüklərinin qəzəbini qazandığını aşkar göstərir.



# Hicabsızlığın cismani zərərləri

*Hicab, təzəliyini və sağlamlığını qoruyub saxlayan meyvə qabığına bənzəyir. Nə qədər ki, qadınlarda bu hicab və iffət var təravət, gözəllik, yenilik və sağlamlıqdan bəhrələnirlər. Amma hicabı açan kimi sağlamlıq və gözəllik də aradan gedir.[1]*

*Allahın vacib buyurduqlarından biri də hicabı qorumaqdır ki, bir çox mənəvi, ictimai, ailəvi, ruhi və hətta cismi mənfəətlərlə doludur.*

*Bu yazıda ixtisara riayət etmək üçün çox qısa şəkildə cismani zərərlərə işarə olunur.*

**Hicabsızlığın cismani zərərləri**

Hicabsızlar üçün mütəmadi olaraq vəhşicəsinə cinsi təcavüzlərə məruz qalmaqdan, qətldən və bəzən müqavimət göstərdikdə kobudcasına döyülməkdən artıq zərər nə ola bilər. Bəzən də bu təcavüzlərin sonu xəstəliklərlə nəticələnir.

Statistik məlumatlara görə İsveçdə qadın hər 20 dəqiqədən bir döyülərək yaralanır və hər 3 saatdan bir təcavüzə məruz qalır. [“Beheşte cəvanan”, səh.235,”]

Hicablı qadınlar üçün cinsi və cismi təhlükəsizlikdən artıq hansı faydaları bəyan etmək olar?

**"Nyu-York Tayms"ın müxbirinin hicab barəsində etdiyi söhbət**

"Nyu-York Tayms"ın müxbirinin "İslama sığınan qadınlar yeni bir təhlükəsizlikdədirlər" sərlövhəli məqaləsində müsəlman xanımlarının günü-gündyən hicaba gəlməsinə işarə edərək yazır: Hansı iş bu qayıdışa səbəb olub? Elə bir qayıdış ki, sözün əsl mənasında şəxsi və ictimai azadlıqlarda formalaşmışdır.

Bunun cavabını islamçıların Orta Şərqin modern cəmiyyətinin ruhuna kişi və qadınına bəxş etdikləri uca məqam və dəyərdə axtarmaq lazımdır.

Hicab qadının izdihamlı şəhərlərdə rahat fəaliyyət göstərməsinə əlverişli şərait yaradır və ətraf şəhərlərdən paytaxtda iş axtarmağa gələn cavan kişilərin onlara mane olmasının qarşısını alır.

Bu geyim (hicab) ətrafında olanlara bir xəbər çatdıraraq deyir: "bu bir nəcib qadındır. Onunla işiniz olmasın". Həmçinin qadına heç bir cinsi təcavüzlərə məruz qalmadan şəhərin cəmiyyətlə dolu olan nəqliyyat vasitələrindən istifadə etməyinə kömək edir.

**Hicabsızlıq və qətl**

Qətldə ittiham olunan bir cavanı tuturlar. Ondan nə üçün bu iyrənc əməli gördüyünü soruşurlar.

Cavabında deyir: "Subay oğlan idim. Min bir zəhmətlə orta məktəb şəhadətnaməmi alaraq universitetə qəbul oldum." Orada gözüm universitetin həyətində və auditoriyasında gəzib-dolaşan, deyib-gülən və əslində, heç bir şeyə riayət etməyən gözəl-hicabsız qızlara düşdü.

Mən də cavan bir oğlan, yavaş-yavaş onlarla dostlaşmağa başlayaraq çox məharətlə onlardan birini aldadaraq onunla evlənəcəyimi bildirdim.

Bir müddət keçdikdən sonra o hamilə olduğunu bildirib, "məni gərək alasan" dedi. İqtisadi vəziyyətimin münasib olmadığı üçün onunla bu gündə-sabahda evlənəcəyimə söz verdim. Nəhayət, bir gün işimiz



böyük bir söz-söhbətə səbəb oldu. Onunla dava etdim. Özümə gələndə onu boğub öldürdüyümü anladım.

**Hicabsızlıq cinsi təcavüzləri azaldırmı?**

Bəzilərinin fikrincə, əgər çılpaqlıq mədəniyyəti artarsa, yavaş-yavaş onun adiləşməsinə səbəb olar və bir də heç vaxt ona tərəf meyilli olmazlar. Bu fikir cinsi baxımdan hardasa düz ola bilər. Amma daxildən gələn bir hərarət, təhrikedici səhnələrə baxdıqca sönmək əvəzinə daha da alovlanacaq. Bu belə olsaydı, Qərbdə cinsi təcavüzlər azad şəkildə olmazdı. "Plaintruth"-un yazdığına əsasən, əvvəllər hər 34-dəqiqədən bir olan təcavüzlərin sayı indi hər 14-dəqiqədən birə çatıb. "Amerikalı Nyuzvik" jurnalının yazdığına əsasən isə, Avropada hər il 10 min uşaq cinsi təcavüzə məruz qalaraq başqa pis məqsədli işlər üçün istifadə olunurlar.

Əhalisinin 98%-ni müsəlmanların təşkil etməsinə baxmayaraq, Türkiyədə Qərb mədəniyyəti daha geniş şəkildə inkişaf edib. Ölkənin statistika bürosunun məlumatına əsasən, Türkiyədə 605 rəsmi və 565 qeyri-rəsmi fəsad mərkəzləri kəşf edilib. Bu ölkədə 13671 əxlaqsız qadın axtarışda və 209 qız isə cinsi təcavüzlərə məruz qalmışdır.

İngiltərənin verdiyi məlumata görə 16 yaşından 30 yaşınadək qadınların 41%-i cinsi təcavüzlərə məruz qalacaqlarına ehtimal verdikləri üçün daim nigarandırlar, 11%-dən yuxarı qadın isə onsuz da bir gün təcavüzə məruz qalacaqlarına inanır, 4% qadın cinsi təcavüzdə həyəcan siqnalından istifadə edir və 7% isə "özünü müdafiə" kurslarına gedirlər.

Statistikanın verdiyi bu məlumatlar çox gözəl sübut edir ki, hicabsızlığın özü, onun adiləşməsinə səbəb deyil, əslində, həddən artıq təcavüzlərin və təhrikedici əməllərin amillərindəndir.

ISLAM.AZ

# *BİR DİLİN 40 GÜNAHI HANSILARDIR?*

***İslam Peyğəmbəri (s) buyurur: Allah üçün ən yaxşı əməl dilə nəzarətdir. Adəm övladının çox günahı onun dilindəndir. Əgər insanlar bir şəxsin dilindən qorxarsa, həmin şəxs cəhənnəm əhlidir!..***

***Rəvayətlərdə dillə bağlı 40 günah sadalanır:***

1. ***Bilmədiyini danışmaq;***
2. ***Eyb axtarmaq;***
3. ***Məsxərəyə, lağa qoymaq;***
4. ***Böhtan demək;***
5. ***Sirr açmaq;***
6. ***Mömini dillə incitmək;***
7. ***Yersiz danlaq;***
8. ***Yalan;***
9. ***Yalan vəd vermək;***
10. ***Yalan and içmək;***
11. ***Yalandan şahid durmaq;***
12. ***Dini mövzuları təhrif etmək;***
13. ***Haqsız hökm vermək;***
14. ***Xalqı lənətləmək;***
15. ***Tənə etmək;***
16. ***Qəlb sındırmaq;***
17. ***Pis işə dəvət etmək;***
18. ***Yaxşı işə mane olmaq;***
19. ***Kobud danışmaq;***
20. ***Küfr və şirki təsdiq etmək;***
21. ***Qeybət etmək;***
22. ***Şayiə yaymaq;***
23. ***Təhqiramiz danışmaq;***
24. ***Pis adla çağırmaq;***
25. ***Yaltaqlıq, yağlı dil işlətmək;***
26. ***Hiylə ilə danışmaq;***
27. ***İfrat zarafat, məzə;***
28. ***Dil yarası;***
29. ***Hörmətdən salmaq;***
30. ***Təkəbbürlə danışmaq;***
31. ***Tərz çıxarmaq, yamsılamaq;***
32. ***Bidət, dində fantaziya;***
33. ***Paxıllığı büruzə vermək;***
34. ***Qəzəblə danışmaq;***
35. ***Söyüş söymək;***
36. ***Xəbərçilik;***
37. ***Ümidi qırmaq;***
38. ***Naməhrəmlə zarafat;***
39. ***İkiüzlü danışmaq;***
40. ***Yalandan fəryad çəkmək.***

# Dünyanın 10 ən böyük məscidi



### 1. Məscidül-Həram

Səudiyyə Ərəbistanın Məkkə şəhərində yerləşən Məscidül-Həram dünyanın ən böyük məscid kompleksidir. İslam dünyasının əsas müqəddəs yeri və müsəlmanların qibləgahı sayılan Kəbə burada yerləşir. Kəbə ətrafında ilk məscid 638-ci ildə tikilib. Əl-Həram məscidinin ümumi sahəsi 357 min kvadratmetrdir. Məscidin hündürlüyü 95 metrə çatan 9 minarəsi var. 4 əsas qapıdan əlavə, məscidə 44 girişdən daxil olmaq mümkündür. Binada 7 eskalator, 500 mərmər sütun var. Kompleksdə eyni anda 850-900 min nəfər namaz qıla bilir. Lakin Həcc mövsümündə zəvvarların sayı göstərilən rəqəmi qat-qat üstələyir. Bəzi mənbələrə əsasən onların sayı 4 milyona çatır.



### 2. Məscidün-Nəbəvi

Dünyada ikinci böyük məscid Mədinə şəhərindəki Məscidün-Nəbəvidir. 622–ci ildə Məkkədən Mədinəyə hicrət edən Həzrət Məhəmməd (s) bu məscidi tikib və ömrünün sonunadək burada yaşayıb. Allah Rəsulunun (s) məzarı məscid kompleksinin ərazisində yaşıl günbəzin altında yerləşir. Müxtəlif tarixi dövrlərdə Əməvi, Abbasi və Osmanlı hökmdarları bu müqəddəs yerin təmiri, genişləndirilməsi və gözəlləşdirilməsi işində öz töhvələrini veriblər. Hazırda Məscidün-Nəbəvinin sahəsi 400 500 min kvadratmetrdir. Kompleksə 105 metrlik 10 minarə daxildir. Burada 600 min nəfər ibadət edə bilər. Həcc zamanı bu say 1 milyona çatır. Qeyd edək ki, gələcəkdə həm Məscidül-Həramın, həm də Məscidün-Nəbəvinin daha da genişləndirilməsi planlaşdırılır.



### 3. İmam Rza ziyarətgahı

818-ci ildə İranın Məşhəd şəhərində tikilən İmam Rza ziyarətgahı dünyanın üçüncü böyük müsəlman ibadət yeri sayılır. Kompleks Abbasi xəlifəsi əl-Məmun tərəfindən şəhid edilən səkkizinci imam Əli ər-Rzanın (ə) məzarı ətrafında tikilmişdir. Məbədin sahəsi 267 079 kvadrat metrdir. Lakin həyətləri ilə birgə kompleksin ümumi sahəsi 598 657 kvadratmetrə çatır. Burada 700 min nəfər ibadət edə bilər.



### 4. Kral Feysəl məscidi

1986-cı ildə Pakistanın paytaxtı İslamabadda türkiyəli memar Vədat Dalokayın layihəsi əsasında tikilən məscid 5 min kvadratmetr sahəni əhatə etsə də, onun ibadət zalında 10 min nəfər, sütunlu eyvanlarında 24 min nəfər, həyətində 40 min nəfər ibadət edə bilər. Beləliklə, burada eyni vaxtda 74 min nəfər namaz qıla bilər. Lakin məbədə bitişik ərazilərdə ibadət edənlərin sayını da nəzərə aldıqda ümumi rəqəm 300 minədək yüksəlir.

Məscid Səudiyyə Ərəbistanın keçmiş kralı Feysəl ibn Əbdüləziz əs-Səudun maliyyə dəstəyi ilə tikildiyindən, onun adını almışdır.

Onun tağ və günbəzləri yoxdur. Memarları belə qərara ruhlandıran isə

bədəvi çadırı olmuşdur. İbadət yeri kənardan böyük üçbucağa bənzəyir. Məscidin 90 metr hündürlüyündə karandaş formalı 4 üçkünc minarəsi var.



### 5. Tac-ül-Məsacid

Hindistanın Bhopal şəhərində yerləşən bu möhtəşəm ibadət yeri ölkənin ən böyük məscidi sayılır. Adı ərəb dilində "məscidlərin tacı" deməkdir. Məscid XIX əsrdə Bhopalın hökmdarı Nəvab Şah Cahan Bequmun əmri ilə tikilməyə başlanıb. Atasının vəfatından sonra qızı məscid tikintisini öz üzərinə götürür, amma maliyyə çatışmamazlığı ucbatından iş yarımçıq qalır. Və yalnız 1971-ci ildə Əllamə Məhəmməd İmran Xan Nədvi Azəri Bhopal məscidinin inşasına yenidən başlayır və tikinti 1985-ci ildə başa çatır.

Moğol memarlıq üslubunda tikilən, çəhrayı fasadlı, iki minarəli və üç günbəzli Tac-ül-Məsaciddə təqribən 175 min dindar namaz qıla bilər.



### 6. İstiqlal məscidi

1978-ci ildə İndoneziyanın paytaxtı Cakartada tikilən məscidin sahəsi 95 min kvadratmetrdir. 90 metrədək ucalan cəmi bir minarəsi vardır. Burada 120 min nəfər eyni anda namaz qıla bilər.



### 7. II Həsən məscidi

1993-cü ildə Mərakeşin Kasablanka şəhərində Atlantik okeanın sahilində ucaldılıb. Memarı əslən fransalı olan Mişel Pinsodur. Məscidin şüşəli zalında 25 min nəfər, həyətində isə 80 min nəfər ibadət edə bilər. Beləliklə, ümumi tutumu 105 min nəfərdir. Yeganə minarəsinin hündürlüyü 210 metrdir.



### 8. Badşahi məscidi

Pakistanın Lahor şəhərindəki məscid 1673-cü ildə Moğol imperiyasının altıncı hökmdarı Övrəngzibin əmri ilə tikilmişdir. İbadət zalında 5 min, həyət və eyvanlarında 95 minədək dindar ibadət etmək imkanına malikdir. Beləliklə, ümumi sahəsinin tutumu 100 min nəfərə bərabərdir. 54 metr hündürlüyündə 4 minarəsi vardır. Üç böyük qübbəsi və səkkizbucaqlı mərmər qübbəciklər istisna olmaqla, fasadı qırmızı qum daşından tikilmişdir.



### 9. Şeyx Zeyd məscidi

2007-ci ildə Birləşmiş Ərəb Əmirliklərinin Əbu Dabi şəhərində tikilən məscid ölkənin qurucusu və ilk prezidenti şeyx Zeyd ibn Sultan ən-Nəhayyanın adını daşıyır. Qırx min nəfərin namaz qıla biləcəyi bu ibadət evinin sahəsi 22 412 kvadratmetrdir. Burada müxtəlif ölçülü 82 tikili və 115 metr hündürlüyündə 4 minarə vardır. Məscid iki rekord vurub: dünyanın ən böyük xalçası və çilçırağı buradadır. Xalçanın sahəsi 5627 kvadratmetrdir; 15 metr uzunluğu olan çilçırağın diametri isə 10 metrdir. 2004-cü ildə vəfat etmiş şeyx Zeydin sərdabəsi də məscidin həyətindədir.



### 10. Beytül-Mükərrəm məscidi

1960-cı ildə Banqladeşin Dəkkə şəhərində tikilən bu ibadət yeri ölkənin milli məscidi sayılır. Kəbəyə bənzər şəkildə inşa edildiyindən Beytül-Mükərrəm, yəni Müqəddəs Ev adlandırılmışdır. Məscidin memarı Əbdül Hüseyn Tarianidir. Burada 30-40 min nəfər namaz qıla bilər.



# İNSAN ÖZ GƏLƏCƏYİNİ TƏYİN ETMƏKDƏ TƏSİRLİ ROLA MALİKDİRMİ?

Dünyada mövcud olan varlıqlar iki qismə – canlılar və cansızlara bölünür. Cansızlar öz müqəddəratlarını təyin etməkdə heç bir təsirə malik deyildirlər. Su, od, daş, torpaq və s. şeylər cansız varlıqlardır. Onlar özlərinin yaradılış və inkişaf mərhələsində heç bir rol oynamırlar. Bunlar xarici amillərin təsiri nəticəsində vücuda gəlir və həmin amillər nəticəsində də bəzən inkişaf mərhələsini keçirlər. Bu səbəbdən də onlar özlərinin tərəqqi və inkişafı üçün heç bir fəaliyyət göstərmirlər. Bitki, heyvan və insan kimi canlılar isə həyatla mübarizə etməyə və öz gələcək nəsillərini davam etdirməyə qadirdilər.

Bitkilər tozlanma yolu ilə mayalanır, torpaq və havadan enerji alaraq inkişafını davam etdirir.

Bütün bunlarla yanaşı heyvanın inkişaf prosesinə köməklik edən amillərdən biri də onun hissiyyat (görmə, eşitmə, iy bilmə, dadma və ləms etmə) orqanlarıdır. Heyvan hissiyyat orqanlarından istifadə edərək təhlükə yaradan qüvvələri özündən dəf edir və gələcək nəslin davamı üçün lazımi şərait yaradır. İnsanda bütün bu təbii qüvvələr bitki və heyvanda olmayan şüur, ondan da əlavə bir sıra meyl və istəklər də mövcuddur. Bunlardan da əlavə olaraq insanın həyat və müqəddəratını təyin edən ecazkar əql və iradə qüvvəsi də vardır ki, bir çox meyarlarla ona seçib ayırd etmək imkanını verir. Dediklərimizdən belə məlum olur ki, varlıqların bir qismi öz gələcək həyatlarını təmin etməyə qadir (canlılar), digər qismi isə belə bir qüvvədən tamamilə məhrumdurlar (cansızlar). Və inkişaf prosesi canlılar arasında müxtəlif mərhələlərdə həyata keçir. Bu proseslər bitkilər aləmində şüursuz olaraq təbii qanunlar, heyvanat aləminə də şüurlu olaraq, amma heç bir azadlıq və istiqlaliyyətə malik olmadan, insanlarda isə həm şüur, həm də azadlıq və istiqlaliyyət şəraitində həyata keçir. Yəni insan şüurlu olaraq ətraf mühitə diqqət yetirir və öz gələcək həyatını istədiyi şəkildə qura bilir. İnsanın gələcək həyatını təmin etmək üçün ifa etdiyi rol heyvanat aləmi ilə müqayisədə daha geniş və daha vüsətlidir.

Bu vüsət dairəsi üç xüsusiyyətə malikdir:

1. Onun agahlıq və dünyagörüşü dairəsinin vüsətliyi; İnsan öz elmi dairəsini genişləndirdikdən sonra yeni-yeni təbii qanunlar kəşf edir və bu qanunları öz ictimai həyatı ilə uyğunlaşdırmağa çalışır.

2. Daxili istək və meylin vüsət dairəsi; Yəni meylin genişlənib vüsət tapması.

3. İnsanın özünü tərbiyəetmə xüsusiyyəti. Bu xüsusiyyətə canlılar arasında yalnız insan malikdir.

Yəni əgər digər canlılar da inkişaf mərhələsini keçirlərsə və onlarda azacıq da olsa, quruculuq qabiliyyəti vardırsa da, bu dəyişikliklər onlarda özünəməxsus tərbiyəvi amillər üzündən həyata keçir.

-Belə ki, biz bu prosesin bitkilər və heyvanlar aləmində də həyata keçməsinin şahidi oluruq. Amma əvvəla bu proseslərin heç biri onların öz əli ilə həyata keçmir, ikincisi də bu dəyişikliklər insanla müqayisədə həddindən artıq azdır.

İnsan xasiyyət və xislətləri qüvvədə olmayan, lakin istedad və qabiliyyət baxımından zəngin

olan bir varlıqdır. Yəni heyvanlardan fərqli olaraq dünyaya gəldiyi zaman heç bir xasiyyət və xislətə malik olmayır. Heyvanlar isə dünyaya gəldikləri ilk gündən özlərinə xas olan xislət və xüsusiyyətlərə yiyələnir və onlarla da ömürlərini başa vururlar. İnsan isə yaşadıqca şərait və amillərdən təsirlənir və beləliklə də müxtəlif xasiyyət və xislətlərə yiyələnməli olur. Deməki, insan özündə fitri xüsusiyyətlərlə yanaşı ayrı bir xüsusiyyət də yaradır.

İnsan elə bir varlıqdır ki, yaradıcılıq qanunu aqibət və müqəddəratının həll olunmasını onun öz ixtiyarına qoymuşdur. Necə istəyirsə eləcə də yaşayır və gələcək üçün müəyyən tədbirlər planlaşdırır. Yəni insan psixologiyası özünün hələ ana bətnində formalaşma prosesi başa çatmış bədən üzvlərindən və həmçinin heyvani ruh və bədən orqanlarından fərqli olaraq, doğulduqdan sonra formalaşmağa başlayır, geniş miqyasda böyüyür və inkişaf edir.

Göründüyü kimi, heyvanlar istər xarici görünüş, istərsə də daxili (psixoloji) xislətlər baxımından bir-birlərinə tamamilə oxşardırlar. Əgər fərqlənirlərsə də bu bir o qədər də nəzərə çarpmır. İnsanların psixoloji və əxlaqi xüsusiyyətləri isə bir-birlərindən tamamilə fərqli və müxtəlifdir. Bu səbəbdən də insan öz müqəddəratını həll edən və istəyinə nail olmağa çalışan yeganə varlıqdır.

İslam mənbələrindən əldə etdiyimiz məlumatlara əsasən, insan qiyamət günü məhşərə özünün zahiri görünüşü ilə deyil, öz əli ilə formalaşdırdığı batini və ruhi xislətlərlə daxil olacaqdır. Yəni insan hər hansı bir heyvanın xüsusiyyətlərini özündə cəm edə bilirsə, məhşərə də ona oxşar surətdə daxil olar. Və insan surətində yalnız o kəslər daxil olarlar ki, insana xas əxlaq normalarını özlərində qoruyub saxlaya bilmişlər.

İnsan malik olduğu elmin vasitəsi ilə təbiətə hakim olur. O da istədiyi dəyişikliklər aparır və ondan öz mənafeyinə uyğun tərzdə istifadə edir. Bununla da o, öz gələcək həyatını, başqa sözlə desək, aqibət və müqəddəratını həll etmiş olur.

Bütün dini, əxlaqi, tərbiyəvi məktəb və ideologiyalar insanların haqqa hidayət olmaları üçün onlara həyat qanunlarını necə tərtib etməyi və gələcəkdə xoşbəxt həyat qurmağın əsas amillərini bəyan etmişdir. Dəhr surəsinin 3-cü ayəsində deyilir:

(«Biz ona haqq yolu göstərdik. İstər [nemətlərimizə] minnətdar olsun, istər nankor [bu onun öz işidir]») (Dəhr-3).

Qeyd olunanlardan belə məlum olur ki, elm və iman insanın gələcək həyatının qurulmasında müxtəlif təsirlərə malikdir.

Elm insana gələcək həyatını istədiyi kimi qurmaqda yaxından köməklik edir və ona belə bir qüdrət və bacarıq bağışlayır. İman isə insanı gələcək həyatını necə qurmağa, bu işin əhəmiyyətini dərk etməyə və bu məsələlərin onun özü və ictimaiyyəti üçün xeyirli olmasını başa düşməyə sövq edir. İman insana öz gələcək həyatını sırf maddi və fərdi həyat tərzi üzərində qurmağı qadağan edir. O, insanı maddiyyatdan xaric edərək istək və iradəsini istiqamətləndirir, onu mənəviyyatında batini meyl və iradəsinin bir hissəsinə çevirir.

İnsan elmdən bir alət kimi istifadə edərək təbiəti öz iradəsinə tabe edir. Onun təbiətdən sui və ya səmərəli istifadə etməsi isə artıq malik olduğu elmdən asılı deyildir. Bu, yalnız kimlərin hansı məqsədlə həmin elmə yiyələnmələrindən asılıdır. İman isə insana hakim olan istək və iradəsini öz ixtiyarına keçirən və onu haqqa hidayət edən daxili bir qüvvədir. Demək iman insanı, insan isə elmin vasitəsilə yaşadığı aləmi qurur. Və bu iki ünsür birlikdə olduqda həm insan, həm də onun dünyası inkişafa doğru yönəlir və müəyyən mərhələlər keçdikdən sonra təkamülə nail olur.



# SURƏLƏR GÜLÜSTANI

## “NUR” surəsi

1-İbn Məskandan rəvayət olunub ki, imam Sadiq (ə) belə buyurdu: Namus və malınızı Nur surəsini oxumaqla qoruyun. Həmçinin öz xanımlarınızı onunla qoruyun, çünki, bir kəs bu surəni hər gün yaxud hər gecə oxumağa davam etdirsə, ölənə qədər öz ailəsindən heç bir kəs iffətsizliyə (əxlaqsızlığa) düçar olmaz, Dünyadan gedəndə yetmiş min mələk onu qəbrinə qədər müşayiət edər, hamısı onun üçün dua edib bağışlanmaq tələb edərlər, sonra onu qəbrə qoyarlar. (Yusif surəsinin 12-ci ayəsinə müraciət edin).

2-Allahın Rəsulu (s) buyurdu: Allah Nur surəsini oxuyan kəsə keçmişdəki və gələcəkdəki möminlərin hamısının əcri qədər həsənə (savab) verər.

Hakim Əbu Əbdullah öz səhihində Ayişədən nəql edir ki, Nəbiyyi-Əkrəm (s) belə buyurdu: Xanımlarınızı evlərdə bekar saxlamayın, bəlkə toxuculuğu və Nur surəsini onlara öyrədin.

Hər kəs Nur surəsini yazıb yatanda onu başının altına qoysa, həmin gecə möhtəlim (cunub) olmaz.

Əgər Nur surəsini kağıza yazdıqdan sonra suya salıb, onun suyunu gözünüzə sürtsəniz, qaranlıq və zəifliyi aradan gedər.

***“Əllahu nurus-səmavati vələrzi məsəlu nurihi kəmişqati fiha misbahunil misbahu fizucacətin-əzzucacətu kəənnəha kəvkəbun durriyyun yuqədu min şəcərətin mübarəkətin zeytunətin la şərqiyyətin vəla ğərbiyyətin yəkadu zəytuha yuziu vələv ləm təmsəshu narun. Nurun əla nurin yəhdillahu linurihi mən yəşau. Və yəzribullahul əmsalə linnasi, vəllahu bikulli şəyin Əlim” (Nur –35).***

**(«NUR» İŞIQLI MƏNASINDADIR; MƏDİNƏDƏ NAZİL OLMUŞDUR).**

**Surənin mətni haqqında:** Surənin 35-ci, «Nur ayəsində» «nur» kəlməsi beş dəfə işlədilmişdir. Ayə belə başlayır: «Allah göylərin və yerin nurudur...» Bu nə deməkdir? Allahı bir nur parçası hesab etmək olarmı? Doğrudanmı, Allah-təala hiss üzvləri ilə duyulan fiziki bir nurdur? Əgər uşağa deyilsə ki, «Allah nurdur», o, Allahı nur parçası kimi təsəvvür edə bilər və bu təbiidir. Amma aydın məsələdir ki, ayə bunu nəzərdə tutmur. Ayənin mənasını dərk etmək üçün nur haqqında bir qədər danışmaq lazım gəlir. Bu kəlmənin ilkin mənası həmin fiziki nurdur. Bu nur başqa şeyləri işıqlandırır, onun özünü isə işıqlandırmağa ehtiyac yoxdur. O aşkar və aydındır. Demək, nur həm özü işıqdır, həm də işıqlandırandır. Onun əksi qaranlıq və zülmətdir. İşıq olmayan yerdə insan öz ətrafındakı predmetləri müşahidə edə bilmir. Amma işıq kimi işıqlandırma xüsusiyyətinə malik olan bir çox şeylər nur adlandırılmışdır. Məsələn, elm nuru, iman nuru, mərifət nuru və s.

**Hədislərdə buyurulur:** Elm elə bir nurdur ki, Allah istədiyi bəndəsinin qəlbində onu parladır. Bəli, elm bir nurdur və elmin işığından varlıq aləmi insan üçün işıqlanır. İman nurunda agahlıq, bəsirət yaradır. Məhz iman nurunda insan yaranmış məqsədini görə bilir və bu nur onu xoşbəxtliyə aparır.

Demək, Allah o mənada nur adlandırılmışdır ki, həm özü aşkardır, həm də göylərin və yerin peyda olmasının səbəbkarıdır. Allah bütün varlıq aləmini işıqlandırandır. Öz yaranış nurundan qaranlıq və zülmətə varlıq libası geyindirən də Odur. Əgər Yaradan olmasaydı, heç bir şey vücuda gəlməz və görünməzdi. Bəli, bütün bunları nəzərə alaraq, Allah-təalanı nur kimi qəbul etmək olar.

Mədinədə nazil olmuş bu surədə bəzi dini hökmlər də bəyan olunmuşdur. Məsələn, kişilərin naməhrəm qadınlara, qadınların isə naməhrəm kişilərə baxması haram buyurulmuşdur. Bu surədə həm də bir şəxsi nahaqdan iffətsizlikdə ittiham etmək məzəmmət olunur və onlara qarşı cəza müəyyənləşdirilir. Bu sayaq böhtan atan insanların şallaqlanması təkid olunur. Allah-təala ona və qiyamət gününə iman gətirənlərdən istəyir ki, bu hədlərin icrası zamanı mərhəmət göstərməsinlər. Günahkarların cəzalandırılmasında bir dəstə möminin iştirakı zəruri sayılır.

Surənin 11-16-cı ayələrində münafiqlərin və bir qrup sadəlövh müsəlmanların Peyğəmbərin (s) məhrəmlərindən biri haqqında böhtan deməsinə işarə olunur. Müsəlmanlar belə sözlər eşitdikləri zaman onu götür-qoy etmədikləri, böhtan saymadıqları üçün məzəmmət olunurlar: «Allah sizə öyüd-nəsihət verir ki, əgər möminsinizsə, bir daha belə etməyəsiniz.» Bəli, möminlər belə sözlər eşitdikləri vaxt deməliydilər ki, bizə bunu danışmaq yaraşmaz, bu çox böyük böhtandır.

19-cu ayədə oxuyuruq: «Möminlər arasında pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir...» Surənin 30-31-ci ayələrində kişilər və qadınlar naməhrəmə göz yummağa çağırılır. Qadınlara göstəriş verilir ki, öz zinətlərini naməhrəmə aşkarlamasınlar. Ayələrdə naməhrəmlər müfəssəl şəkildə sadalanır.

32-ci ayədə göstəriş verilir ki, subay oğlanlar və qızlar evləndirilsinlər. Yoxsulluq qorxusundan izdivacı təxirə salmaq bəyənilmir və müsəlmanlar belə yersiz təsəvvürlərə görə qınanır: «Əgər onlar yoxsuldurlarsa, Allah onları öz lütfi ilə dövlətli edər. Allah açılış edəndir və bəndələrinin halından agahdır.

# VİTAMİN ÇATIŞMAZLIĞI NƏYƏ SƏBƏB OLA BİLƏR?



***Vitaminlər sağlam həyatın ayrılmaz bir hissəsidir. Vitamin insan orqanizmində sağlam proseslərin getməsi, immunitetin xəstəliklərlə mübarizə aparması üçün vacibdir.***

***Xüsusilə yazın gəlişi ilə bağlı bədənin davamiyyətini artırmaq üçün vitaminlə bol qidalardan istifadə edilməlidir. Vitaminlərin qidaların tərkibində qalması onların yuyulma, saxlanma, bişirilmə yollarından da asılıdır. Bundan əlavə öz vaxtında olan meyvə tərəvəzlə, istixana məhsulları arasında da vitamin səviyyəsində fərq ola bilir.***

---

**Vitaminlər iki qrupa bölünürlər.**
Suda həll edilənlər: C və B qrupu
Yağda həll olunanlar: A, D, E, K vitaminləri

**B1 vitamini** - tərəvəzlərdə, taxıllarda, paxlalılarda, meyvələrdə olur. Bu vitamin böyümə dövründə olanların sinir sisteminin inkişafına kömək edir. B1 vitaminin çatışmazlığı qusma, iştahsızlıq, narahatlıq, nəfəs almaqda çətinlik, ürək döyüntüsü, göyərmə, ürək çatışmazlığı, mərkəzi sinir sisteminin pozulması, səsin batması kimi xəstəliklərə səbəb ola bilər.

**B2** - süd, pendir və bəzi yaşıl tərəvəzlərdə olur. Əksikliyigörmə problemi, dodaq kənarında çatlar, dəri və sair xəstəliklərə yol aça bilər.

**B6** - çatışmazlığı dildə şişmə, ağız və burun ətrafında yağlanma ilə müşahidə edlir. Taxıllar, yumurta, ət və ciyər B6 ilə zəngindir.

**B12** - ət, balıq, dəniz məhsullarında, süd və süd məhsullarında var. Çatışmazlığı sinir sistemində problemlərə və qan azlığına yol aça bilər.

**C vitamini** - narıncı meyvələr, itburnu, brokoli, bibər, pomidor, ispanaq kimi tərəvəzlərdə boldur. Hüceyrə yenilənməsində əvəzsizdir.

**A vitamini** - ən çox balıq, yumurta, kərə yağı və sarı meyvələrdə olur. Əksikliyiçəki



artıra bilməmək, boyun qısa qalması, gözün parlaqlığını itirməsi, dərinin quruması, gecə korluğu kimi fəsadlara səbəb ola bilər.

**D vitamini** - həm qidalanma, həm də günəş işığının köməyi ilə qəbul edilə bilər. Balıq, pendir, süd, kərə yağı və yumurtanın sarısında olur. Çatışmazlığı uşaqlarda raxitliyə yol açır. Sümüklərdə kalsium və fosfor miqdarını tənzimləyir. Narahatlıq, baş tərləməsi, qaşıntı, yuxusuzluq, əzələdə gücsüzlük, diş problemləri, kəllə sümüyündə yumşalma, böyümə kimi əlamətlər ola bilər.

**E vitamini** - antioksidan təsirə malikdir, yaraların sağalmasını sürətləndirir, damar sağlamlığını qoruyur. Çatışmazlığı qan azlığına səbəb ola bilər. Taxıl məhsulları, balıq, balıq yağı, çərəz, yumurta sarısında olur.

**K vitamini** - yaşıl tərəvəzlərdə olur. Çatışmazlığı diş əti qanamalarına səbəb ola bilər.

# MOLLA NƏSRƏDDİN (1308-1384)





Nəsrəddin (Xoca Nəsrəddin, Əfəndi, Əpəndi, Molla Nəsrəddin) xalq müdriki olmuşdur. Sufi kimi tanınmışdır. İdentifikasiyasına (eyniləşdirməyə) görə avropalı və rus tədqiqatçıları onun mənşəcə türk olduğunu təsdiq etmişlər. 1308-ci ildə qədim Xorto kəndində anadan olmuşdur. Kiçik Asiyada Konya sultanlığının quberniyası sayılan, o qədər də böyük olmayan Ağşəhərdə yaşamışdır. Atası Abdullah məsciddə axund olmuşdur. O özü Kayseri şəhərinin mədrəsələrinin birində müəllim işləmişdir. Bu məktəb Səlcuqilər dövründə ruhani məktəb kimi məşhur olmuşdur. Xalq arasında intellektuallaşdırılmış davranışa meylliliyinə görə böyük populyarlıq qazanmışdır. Müəyyən dövrdə Nəsrəddin məsul ruhani vəzifəsini – qazi vəzifəsini yerinə yetirmişdir. Daha dəqiq desək, vətəndaş işlərinə baxılmasında şəriət hakimliyini icra etmişdir. Onun həyatı Səlcuqilər sülaləsinin süqutu, monqol ağalığının başlanması dövrünə təsadüf edir. O həm şair, həm dərviş olmuşdur. Onun şerləri zəmanəmizə qədər gəlib çatmamışdır. Nəsrəddin diribaş, fərasətli adam olmuşdur. Onun üçün çətin situasiya anlayışı nadir hallarda mümkün ola bilərdi. Hər hansı bir hadisəni o, istədiyi kimi yoza bilmişdir. Onun koordinat şəbəkəsi hərəkətli və çevik olmuşdur.

Nəsrəddin müxtəlif türk ellərində müxtəlif adlarla məşhur olmuşdur. Türkiyədə hələ qədim dövrlərdən başlayaraq elm və maarif adamına hörmət əlaməti olaraq ona Xoca deyərək müraciət edirdilər. Bu ənənə indi də qalmaqdadır. 1935-ci ildə bütün titul və dərəcələr – bəy, əfəndi, paşa, xoca, ağa və s. ləğv edildi. Kişilər üçün müraciət forması "bəy", qadınlar üçün "bayan" sözləri müəyyənləşdirildi . Lakin "Xoca" sözü Türkiyədə indi də hörmət ifadəsi olaraq müəllim və alimlər arasında geniş surətdə işlənməkdədir.

Əfəndi isə hələ yunanlardan götürülmüş savadlı adamlara müraciət forması kimi saxlanılmaqdadır. Taciklər arasında əfəndi, özbəklərdə isə əpəndi kimi işlədilir. Orta Asiyada Nəsrəddin Əfəndi kimi tanınır. Azərbaycanda isə molla ləqəbi ilə məşhur olmuşdur.

Xəsis adamlardan biri ilə mollanın mübahisəsi düşür. Bir qədər söz güləşdirdikdən sonra axırı xəsis Mollaya deyir: "Hər nə deyirsən de! Amma bu pul zəhrimar elə şeydir ki, hamı onu sevir. Hətta lap sən, özün də sevirsən". Molla deyir: Düzdür sevirəm. Ancaq bu sənin sevməyindən deyil. Mən pulu ona görə sevirəm ki, məni sənin kimi adamlara möhtac olmaqdan xilas edir.

Bir dəfə Nəsrəddin minbərə çıxaraq demişdir: Yeri, göyü 6 aya yaradan Allaha eşq olsun! Oradakılar deyirlər: Hörmətli Nəsrəddin, 6 aya yox, 6 günə. Nəsrəddin cavab verir: Mən bunu əla bilirəm. Qorxdum ki, adamlar inanmasın! Nəsrəddinin hadisələri başa düşməsi üçün bir planı olmamışdır. Onun qavrayış intellekti ağlının hesabına çox sürətli olmuşdur.

Bəşəri planda Nəsrəddini "müdriklik sindromu" daim müşayiət etmişdir. Bu ağlın xüsusi vəziyyətidir. Qavranılan hər şeyi işıq filtrindən keçirir. Bu cür insanlar onlarla baş verənlərin paradoksalizmini, ziddiyyətlərin tendensiyalılığını hiss edir və özlərini qaydalardan qaçanlar kimi göstərirlər. Uşaqlıq illərində Nəsrəddinin atası nə deyirmişsə, o əksinə edərmiş. Ona görə də atası həmişə sözü əksinə deyirmiş ki, oğlu da tərsinə eləməklə, işlər düz getsin. Bu isə həmişə belə gedə bilməzdi. Həyat Nəsrəddini müdrik etməklə dünyaya çox şey vermişdir.

Qeyd etmək lazımdır ki, Xoca Nəsrəddinin tarixi haqqında ilk məcmuə XVI əsrin əvvəllərində Türkiyədə yazıçı və şair Lamii tərəfindən tərtib olunmuşdur. Lamii 1531-ci ildə ölmüşdür. Onun kompilyasiyası (müstəqil tədqiqat aparılmadan, başqalarının əsərlərindən istifadə yolu ilə düzələn əsər və onun bu əsər hələ indiyə qədər çap olunmamışdır) ərəb, fars mənbələrini, həm də təkcə yazılı deyil, eyni zamanda şifahi ərəb mənbələrini özünə daxil etmişdir. XIX əsrdən Nəsrəddin lətifələrinin çap olunması tarixi başlanır. Əvvəl İstanbulda (1837-ci ildə) və sonra Bulakda Nəsrəddin yaradıcılığının mətbəə nəşrlərinin əsası qoyulmuşdur. Nəsrəddinin uydurma şəxsiyyət olduğunu deyənlər bir şeyi unudurlar ki, hər şeyi uydurmaq olar, müdrikliyi isə uydurmaq qeyri mümkündür. Müdriklik konkret insanı – müdriki tələb edir. Qabaqcıl, o cümlədən müdrik və təhsilli adamlar uşaqlarla həmişə mehriban olmuşlar. Nəsrəddin də belə bir müdrik şəxsiyyətlərdən biri olmuşdur. Uşaqlar çətinlik olan kimi Nəsrəddinin yanına qaçar, ondan yardım alırdılar. Xocadan soruşurlar: "Allah haradadır?" O, isə cavabında deyir: "məgər elə yer vardırmı orada Allah olmasın!" Dünya haqqında danışarkən onu deyə bilərik ki, Xoca bir dəfə küçəyə çıxıb görür ki, mey-



danda xeyli adam yığışıb mübahisə edirlər və Nəsrəddindən soruşurlar: "Xoca, sən bir alim adamsan. De görək, bu dünyanın eni nə qədərdir və uzunu nə qədərdir?" Bu zaman küçə ilə bir cənazə aparırdılar. Xoca cənazəni göstərərək deyir: Bu sualı ona verin. O, dünyanın enini də, uzununu da ölçüb gedir.

Sosial mövqeyinə gəldikdə Nəsrəddin burada öz ağlı ilə adamları heyrətə salır. O çəkinmədən hökmdarların üzünə onların günahlarını demişdir. Bir sözlə, bütün dünyanın sevdiyi türk oğlu, müdrik insan Xoca, molla, əfəndi, əpəndi Nəsrəddin 700 ildir ki, bəşəriyyəti güldürür və güldürə-güldürə düşünməyə məcbur edir.

# İBRƏTDOLU

## Paxıllıq sahibini öldürər

Mötəsim Abbasi xəlifə olan zaman səhrada yaşayan ərəblərdən biri, onun sarayında yüksək məqama çatır. O, hətta Mötəsimdən icazə almadan hərəminə daxil ola bilir. Mötəsimin paxıl bir vəziri var idi və bu ərəbin tutduğu mövqeyə görə əzab çəkirdi. Öz-özünə deyirdi: "Əgər onu bu tezliklə saraydan qovmasan, onu Mötəsimin gözündən salmasam, o, məni vəzirlikdən atacaqdır". Belə qərara gəlir ki, ona yaxın olsun və ona mehribanlıq göstərsin. Sonra da evinə dəvət etsin. Nəhayət onu evinə dəvət edir və onun üçün içində çoxlu sarımsağı olan yemək hazırlayır. Ərəb də bu yeməkdən lazımlı qədər yeyir. Sonra isə onun yanında əyləşib deyir: "Mötəsimin yanına gedəndə çalış ki, ağzının iyi ona dəyməsin. Çünki xəlifənin bu iydən xoşu gəlmir". Ərəb Mötsiəmin yanına gəlməmişdən qabaq vəzir özünü xəlifəyə çatdırır və deyir: "Sizin bu qədər sevgi göstərdiyiniz bu ərəb insanlara deyir ki, sizin ağzınızdan çox pis iy gəlir və o qədər pisdir ki, az qalır ki, həlak olsun". Ərəb isə bundan xəbərsiz halda saraya gəlir və əlini ağzına tutur ki, sarımsağın iyi xəlifyyə çatmasın. Xəlifə bunu görən zaman yəqinə çatır ki, vəzir düz deyir. Sonra məktub yazıb ərəbin əlinə verir və deyir ki, bunu apar və filankəsə ver. Məktubda isə boynunun vurulmasını əmr etmişdi.

Əlində məktubla çıxan zaman vəzirlə üz-üzə gəlir. Vəzir ərəbin əlindəki məktubu görəndə fikirləşir ki, ərəbə mükafat verəcəklər. Ona görə də ərəblə müamilə etməyi qərara alır və ona deyir ki, mən sənə iki min dinar verirəm və sən də bu məktubu mənə ver. Məktubu alıb, həmin deyilən şəxsə çatdırır və o, da bu əmri yerinə yetirir. Xəlifə vəzirini uzun müddət görməyəndə səbəbini soruşur və deyirlər ki, sənin əmrinlə öldürmüşük. Sonra ərəbin yerini soruşur və deyirlər ki, şəhərdədir və onu çağırır. Əhvalatı ətraflı öyrənən zaman başa düşür ki, vəziri paxıllıq etmişdir. Ona görə deyir: "Allah paxıllığı məhv etsin ki, o paxıllıq edəni məhv edər".

## İmam Sadiq (ə) və hindistanlı həkim

İmam Sadiq (ə) bir gün xəlifə Mənsur Dəvaneqinin məclisində idi. Xəlifənin yanında hindistanlı bir həkim əyləşmişdi. O, tibb elmi haqqında yazdığı kitabı xəlifəyə oxuyurdu. İmam Sadiq (ə) bu məclisin bir küncündə əyləşmişdi. Bir müddət keçir və həkim kitab oxumağı saxlayan zaman nəzəri İmama (ə) düşür. Bir müddət Həzrətin (ə) nurani simasına tamaşa edir. Sonra xəlifəyə nəzər salır və deyir: "O, Ali-Muhəmmədin (s) alimidir. Mənim yazdıqlarımdan bəhrələnmək istəyirmi?".

Xəlifə İmama (ə) baxır və bir söz deməmişdən qabaq İmam (ə) ona buyurur: "Xeyr".

Həkim İmamın (ə) bu cavabından təəccüblənir və deyir: "Niyə?" İmam (ə) buyurur: "Çünki sənin yanında olandan daha yaxşısı varımdır". Həkim deyir: "Sənin yanında nə vardır". İmam (ə) buyurur: "İstiliyi soyuqluq ilə müalicə edirəm. Soyuqluğu da istiliklə. Rütubəti quruluqla müalicə edirəm, quruluğu isə rütubət ilə. Peyğəmbərin (s) buyurduqlarını edirəm və nəticəsini Allaha tapşırıram". Sonra da cəddi Peyğəmbərə (s) işarə edərək, buyurdu: "Mədə hər bir xəstəliyin evi və pəhriz hər bir müalicənin başıdır". Həkim deyir: "Məgər tibb bunlardan başqasıdırmı?". İmam (ə) buyurur: "Güman edirsən ki, mən də sənin kimi bunları tibb kitabından öyrənmişəm?". Həkim deyir: "Məgər başqa yol vardırmı?" İmam (ə) buyurur: "Yox, Allaha and olsun ki, Allahdan başqasından öyrənməmişəm. İndi de görüm, bizlərdən hansımız tibb elmində daha bilikliyik?" Həkim deyir: "Mənim işim tibbdir və bu sahədə sizdən elmliyəm". İmam (ə) buyurur: "Onda bu sualıma cavab verin: İnsanın başı niyə bütöv deyildir, ayrı-ayrı parçalardan əmələ gəlmişdir?" Dedi: "Bilmirəm". Buyurdu: "Niyə insanın alnı başı kimi türklə örtülü deyildir?" Dedi: "Bilmirəm". Buyurdu: "Niyə alında müxtəlif xətlər vardır?" Dedi: "Bilmirəm". Buyurdu: "Qaşlar niyə gözün üzərində yerləşir?" Dedi: "Bilmirəm". Buyurdu: "Burun niyə iki gözün arasında yerləşir?" Dedi: "Bilmirəm". Buyurdu: "Niyə əllərin və ayaqların üzərində tük yoxdur?" Dedi: "Bilmirəm". Buyurdu: "Böyrəklər" niyə lobya kimi xəlq edilmişdir? Dedi: "Bilmirəm". Və bu cür bir neçə sual verir və həkim də heç birinin cavabını bilmir. Buyurur: "Ey hindistanlı həkim! Ancaq mən Allahın fəzilətinə və hikmətinə görə bu sualların cavabını bilirəm". Həkim dedi: "Cavabları deyin ki, bəhrələnək". İmam (ə) bu sualların cavabını verir. Həkim təəccüblə soruşur: "Bunları haradan bilirsən?". Buyurur: "Atalarımdan öyrənmişəm". Atalarım da Peyğəmbərdən (s) öyrənmişdir. Peyğəmbər (s) də Cəbrayildən (ə) öyrənmişdir. Cəbrayil (ə) də Allahdan öyrənmişdir.

Həkim ömründə bu qədər bilikli insana rast gəlmədiyi üçün çox təəccüb edir. O, İmama (ə) baxaraq, deyir: "Təsdiq edirəm və şəhadət verirəm ki, yeganə Allahdan başqa Allah yoxdur. Muhəmməd (s) Onun göndərdiyidir. Allaha and olsun ki, indiyə qədər tibb elmində səndən elmlisini görməmişdim".

# HEKAYƏLƏR

## Arifin arpasını məmur atları niyə yemədi?

Hacı Molla Hadi Səbzvarinin adlı bir arifin kəramətlərindən çox danışılır. Bu böyük alimin məğrib, işa namazları və təsbihatları deyilənə görə dörd saat çəkərdi. Səhərə qədər oyaq qalırdı. Ustad Ənsarian yazır ki, Səbzvarda on gecə oldum və hər gün onun qəbrinin üstünə gedirdim. Qadınlar uzaq kəndlərdən xəstə uşaqlarını gətirirdilər və onun qəbrinin torpağından götürüb, uşaqlarının ağzına sürtürdülər. Mən bir nəfərdən soruşdum ki, onlar niyə belə edirlər? Dedi: Onların həkimə getmək üçün pulları yoxdur. Ancaq Hacıya o qədər inanırlar ki, uşaqları xəstələnən kimi bura gəlirlər və qəbrin torpağını uşaqlarının ağzına sürtürlər və onlar da yaxşı olurlar.

Qədim zamanlarda şəhəri idarə etmək üçün insanlardan müxtəlif bəhanələrlə pul alırdılar. Məmurlardan biri Hacını tanımırdı. Bilmirdi ki, o, 13-cü əsrin əvəzsiz alimidir. Hacının paltarı da axund paltarı deyildi, kəndlilərin paltarı kimi idi. Əmmaməsini də kəndçilər kimi bağlayırdı. Əgər tanımasalar, bilməzdilər ki, bu dünyada kitablarından dərs deyilən alimdir. Həmin adam bir sənəd çıxarır və Hacıya uzadıb deyir: "Bu, sənindir”. Hacı baxıb görür ki, qonşusuna aid olan bir sənəddir. Qonşuları da yoxsul insanlar idilər. Səhvən həmin adama bu sənədi vermişdilər. Burada iki kisə arpa verilməsi qeyd edilmişdi. Dedi: Bəli, mənimdir. Gəl, bizim evə və iki kisə arpa apar. İki kisə arpanı götürüb, verir. Səhərisi günü zabit gəlib, həmin məmurdan soruşur ki, bu atlar niyə acdırlar. Məgər onlara arpa verməmisənmi? Dedi, iki kisə arpa gətirdim, ancaq bu atlar yemədilər. Zabit soruşur: Bəlkə bu arpalara nəyi isə vurublar ki, onu yeməsinlər. Dedi: Mən həmin arpaları iyləmişəm, ancaq heç bir iy gəlmirdi. Zabit dedi: Get, sahibini tap və gətir. Gəldi və sahibi tapıb, dedi: Ağa, zabit sizi çağırır. Gəlir və zabit ondan soruşur: Arpa sənindir? Deyir: Bəli. Soruşur: Bəs niyə atlar və qatırlar yemirlər? Deyir: Çünki mən arpalara demişdim: Getdiyiniz yerdə atların və qatırların ağzına girməyin, yeriniz ora deyildir. Bu arpaları yüz gün onların qabağına töksəniz də onlar yeməyəcəklər. Verdiyin o sənəd zalımcasına idi və onu tədqiq etməmiş vermişdin. Əgər iki kisə arpanı o yoxsuldan alsaydın, arvad-uşağı ac qalardı. Bu iki kisə mənim birlik zəhmətimin bəhrəsidir. Əgər atların onları yesəydi, bu iki kisə qədər arıqlayardılar. Ona görə də arpalara dedim ki, gedin gecəni orada keçirin, ancaq səhəri qayıdıb, gəlin”.



İlahi Övliyalar heç bir zaman zarafat etməzdilər. Süfrə başında götürdükləri hər tikəyə deyərdilər: "Get, sonra namaz halında və gecə vaxtı göz yaşı kimi bayıra çıx”. İcazə verməzdilər ki, bu tikələr naməhrəmə baxmaq və ya başqa günahlara vəsilə olsun. Tikələrinə deyərdilər: "Ağzımdan aşağı düşən zaman nur, ibadət, itaət, məhəbbət, kəramət, eşq, göz yaşı kimi bayıra çıx”.

Həzrət Əli (ə) buyurur: "Oğlum, Həsən can! Qəlbinə bir səfər et, ev xarabdır. Get və bu səfərdə qəlbinə şərlərdən nicat ver. Onu Pərvərdigarın əlinə ver. De: Allahım! Bu sənin evin idi, ancaq xarab olub. Şeytanın yuvası olub. Allahım! Mən onların hamısına yol vermişəm. Ancaq indi bayıra çıxarda bilmirəm. Düşmənə yol vermişəm. Bunu bacarmıram və bu, Sənin işindir. Bu viranəyə bir nəzər sal. Düşməni evindən çıxart. Allahım! Mən gəldim, ancaq evimi xarab etdim. İndi Ramazan ayının gecəsində ağlayaraq, peşman olaraq, başıaşağı, narahat və təəssüflə gəlmişəm. Gəlmişəm və deyirəm: Mövlacan! Əgər Sən nəzər salmasan, düşmən bu evdən getməyəcəkdir.”

# KROSSVORD



## Soldan sağa

6. Səhabələr
7. Peyğəmbər və ailəsinə göndərilən
8. 10-cu İmam
10. Peyğəmbərlərin xatəmi
13. Dindən xaric olan
15. Allahın adlarından biri
16. Ətir
17. Məscidin üstü
20. Ərəbcə 40 məclisi
23. Möcüzə
28. Ad
30. Quranın adlarından biri
31. Ölüm mələyi
32. Din məktəbi
33. Şəriət, fiqh
34. Məsumların kəlamı
35. Əmrə tabe olmaq

## Yuxarıdan aşağıya

1. Cənabət
2. İslam müqəddəslərinin həyatı barədə bəhs edən tarixi janr
3. Allahın adlarından biri
4. İbadətlə məşğul olan
5. Məhrəm olmayan
9. Quranda surə
11. Riya
12. Dəstəmaz
14. İmam Hüseynin (ə) qızı
18. Kəbədə Həcc ziyarətindən qabaq yerinə yetirilən əməl
19. Davud Peyğəmbərə nazil olan kitab
21. Namzda dua vəziyyəti
22. Kəbin kağızı
24. Sinəzən
25. Müqəddəs torpağa deyilir
26. Təlhə və Zübeyrin İmam Əliyə (ə) qarşı etdiyi müharibə
27. Din xadiminin baş geyimi
29. Axirətdən öncə

# Dünya ölkələrindəki gözəl məscidlər















# İMAN

www.iman.ge www.imanmedia.ge

## AZAN VAXTLARI

| Tarix | Sübh azanı | Günəş çıxır | Günorta azanı | Günəş batır | Məğrib azanı | Gecə yarısı |
|---|---|---|---|---|---|---|
| 01 | 6:40 | 8:08 | 12:50 | 17:31 | 17:50 | 00:16 |
| 02 | 6:41 | 8:09 | 12:50 | 17:31 | 17:50 | 00:16 |
| 03 | 6:42 | 8:10 | 12:50 | 17:31 | 17:50 | 00:16 |
| 04 | 6:43 | 8:11 | 12:51 | 17:30 | 17:50 | 00:17 |
| 05 | 6:43 | 8:12 | 12:51 | 17:30 | 17:50 | 00:17 |
| 06 | 6:44 | 8:13 | 12:52 | 17:30 | 17:50 | 00:17 |
| 07 | 6:45 | 8:14 | 12:52 | 17:30 | 17:49 | 00:18 |
| 08 | 6:46 | 8:15 | 12:53 | 17:30 | 17:49 | 00:18 |
| 09 | 6:47 | 8:16 | 12:53 | 17:30 | 17:49 | 00:18 |
| 10 | 6:47 | 8:17 | 12:53 | 17:30 | 17:50 | 00:19 |
| 11 | 6:48 | 8:17 | 12:54 | 17:30 | 17:50 | 00:19 |
| 12 | 6:49 | 8:18 | 12:54 | 17:30 | 17:50 | 00:20 |
| 13 | 6:50 | 8:19 | 12:55 | 17:30 | 17:50 | 00:20 |
| 14 | 6:50 | 8:20 | 12:55 | 17:31 | 17:50 | 00:21 |
| 15 | 6:51 | 8:20 | 12:56 | 17:31 | 17:50 | 00:21 |
| 16 | 6:52 | 8:21 | 12:56 | 17:31 | 17:51 | 00:22 |
| 17 | 6:52 | 8:22 | 12:57 | 17:31 | 17:51 | 00:22 |
| 18 | 6:53 | 8:23 | 12:57 | 17:32 | 17:51 | 00:23 |
| 19 | 6:54 | 8:23 | 12:58 | 17:32 | 17:52 | 00:23 |
| 20 | 6:54 | 8:24 | 12:58 | 17:33 | 17:52 | 00:23 |
| 21 | 6:55 | 8:24 | 12:59 | 17:33 | 17:53 | 00:24 |
| 22 | 6:55 | 8:25 | 12:59 | 17:34 | 17:53 | 00:24 |
| 23 | 6:56 | 8:25 | 13:00 | 17:34 | 17:54 | 00:25 |
| 24 | 6:56 | 8:26 | 13:00 | 17:35 | 17:54 | 00:25 |
| 25 | 6:57 | 8:26 | 13:01 | 17:35 | 17:55 | 00:26 |
| 26 | 6:57 | 8:26 | 13:01 | 17:36 | 17:55 | 00:26 |
| 27 | 6:57 | 8:27 | 13:02 | 17:37 | 17:56 | 00:27 |
| 28 | 6:58 | 8:27 | 13:02 | 17:37 | 17:57 | 00:27 |
| 29 | 6:58 | 8:27 | 13:03 | 17:38 | 17:58 | 00:28 |
| 30 | 6:58 | 8:28 | 13:03 | 17:39 | 17:58 | 00:28 |
| 31 | 6:59 | 8:28 | 13:04 | 17:40 | 17:59 | 00:29 |

*Təsisçi: " İman" mədəni maarif mərkəzi*
*Redaktor: Ramin İgidov*

*Məsul katib: Elvin Bayramov*
*Kompüter dizaynı: Nəqi Cəlilxoca*

*Ünvan: Tbilisi, Mçxeta küç.№4*

*Qəzetin səhifələrində Quran ayələri və hədislər dərc olunduğuna görə, pak yerdə saxlanmasını xahiş edirik.*